PREZİDETLƏRİN ON İKİ NAMƏLUM XÜSUSİYYƏTİ səh. 3

www.khamsa.az

Ailənizin qəzeti

# Xəmsə

04-11 iyun, 2005-ci il (21/25) * Qiymәti 1000 manat

SKANVORD səh. 14

TV PROQRAM səh. 7, 10

## RUSİYANIN ERMƏNİ NAMİNƏ İKİBAŞLI OYUNLARI

səh. 2



## GÖL BİR GECƏDƏ MÜƏMMALI ŞƏKİLDƏ YOXA ÇIXIB

səh. 11





## TİPİK GƏLİNİN SƏHVLƏRİ NƏDƏDİR?

səh. 15

## Əməkdar artist MEHRİBAN XANIMDAN rəfiqələri niyə üz döndəriblər?

(Səh. 8-də)




## ƏZİZ NESİNDƏN GÜLÜŞ PAYI

səh. 5

## ALLA-FİLİPP QALMAQALI, YAXUD ULDUZLAR HANSI YOLLA PUL QAZANIR VƏ NƏYƏ XƏRCLƏYİRLƏR

səh. 12

## VARLANMAQ ELMİ



## CEY LO: "Mən həqiqətən ciddiləşmişəm, özüm də hiss edirəm ki, indi daha yaxşıyam".

səh. 9



## PUL əl çirkidirmi?

səh. 4

## Artıq silahların bir hissəsi Ermənistana daşınıb



### Gürcüstandakı hərbi qüvvələr hesabına Ermənistanı gücləndirməyə çalışan Rusiyanın Xarici İşlər Nazirliyi Azərbaycan qarşısında özünə bəraət qazandırmağa çalışdı

# RUSİYANIN ERMƏNİ NAMİNƏ İKİBAŞLI OYUNLARI




***Rusiyanın Bakıdakı Müvəqqəti vəkili Petp Bupdıkin Azərbaycan Xarici İşlər Nazirliyinə Azərbaycan tərəfin 23 mayda verdiyi Rusiyanın Gürcüstandakı hərbi bazalarının bir hissəsinin Ermənistana köçürülməsinə qarşı etiraz notasına öz dövlətinin xarici siyasət idarəsinin cavabını təqdim eedib.***

Hazırda bu məsələyə dair Moskva-Tbilisi danışıqlarının başa çatmasını gözləyən Azərbaycan hökuməti bəzi kütləvi informasiya vasitələrində yayılan məlumatlara reaksiya verməyə tələsmir.

Xarici işlər naziri Elmar Məmmədyarovun sözlərinə görə, hələlik bu xəbərlər rəsmi təsdiqini tapmayıb. Gürcüstan tərəfin Bakının mövqeyini nəzərə alacağı bildirilir. Bazaların köçürülməsinin qarşısını almaq lazım gələrsə, rəsmi Bakı öz təsir mexanizmlərini işə salacağını vurğulayıb. Nazir deyib: "Ümumiyyətlə, bizdə onun qarşısını necə almaq üçün bəzi fikirlər də var. Amma hələ tezdir. Qoy Gürcüstan və Rusiya arasında danışıqlar qurtarsın. Nəticələri bilək, ondan sonra reaksiya verərik".

Gürcüstanın Bakıdakı səfiri Zurab Qumberidzenin sözlərinə görə, rəsmi Tbilisi bazaların Ermənistanda yerləşdirilməsini pisləsə də, bunu Rusiya və Ermənistanın daxili işi kimi qiymətləndirib: "Danışıqlar artıq başa çatıb. Hətta tarix də müəyyənləşib ki, bazalar nə vaxta qədər çıxarılsın. Biz mövqeyimizi birmənalı olaraq bildirmişik ki, həmin bazalar Rusiyaya köçürülməlidir. Bu, mərhələli şəkildə həyata keçiriləcək. Biz onların Ermənistanda yerləşdirilməsini müsbət qarşılamırıq". Qumberidze həmçinin qeyd edib ki, rəsmi Tbilisi bazaların məhz Rusiyaya qaytarılması ilə bağlı birmənalı mövqe nümayiş etdirsə də, sonda Moskva öz bildiyi qərarı qəbul edəcək *(ATV).*

Gürcüstandan Ermənistana silah-sursatla dolu vaqonların getməsi barədə yayılan məlumatlarla bağlı APA-nın müxbirinin sualını cavablandıran Rusiyanın Azərbaycanda müvəqqəti işlər vəkili Pyotr Burdıkin isə deyib ki, Rusiya Azərbaycan Xarici İşlər Nazirliyinin notasına cavab göndərib. Notaya görə, Batumidəki bazadan hərbi texnikanın Gümrüyə ötürülməsi o deməkdir ki, Rusiyanın bir hərbi bazasındakı hərbi texnikası o biri hərbi bazaya göndərilir: "Silah-sursatın Ermənistana təhvil verilməsi barədə deyilənlər isə uydurmadır, bu, mümkün deyil".

Burdıkinin sözlərinə görə, Rusiya Gürcüstandan çıxarılan hərbi bazanı öz ərazisində yerləşdirməyi planlaşdırıb, lakin Gürcüstan və digər dövlətlər bu prosesi tezləşdirmək üçün təzyiqlər göstərdiyindən Rusiya sursatı yaxınlıqda yerləşən digər hərbi bazasına ötürməyi düşünür:

***"Bu prosesin Ermənistana heç bir aidiyyəti yoxdur, biz Ermənistana sursat verməyi düşünmürük. Bu, üçüncü dövlətə qarşı yönəlmiş addım kimi qiymətləndirilməməlidir, Dağlıq Qarabağ problemlərinin həllinə də təsir etməyəcək və bu proses beynəlxalq müqavilələrə zidd deyil".***

# "QƏBƏLƏ RLS" RUSLARDAN ALINA BİLƏR

***Əgər Moskva Ermənistana silah göndərməkdə davam edərsə, Rəsmi Bakı Qəbələ Radiolokasiya Stansiyasının Rusiyaya icarəyə verilməsinə dair müqaviləyə yenidən baxa bilər. Buna səbəb Gürcüstandakı Rusiya hərbi bazalarının Ermənistana köçürülməsidir.***

Rusiya informasiya agentlikləri Azərbaycan hökumətindəki mənbəyə istinadən bildirir ki, rəsmi Bakı yaxın günlərdə Moskvadan radiolokasiya stansiyasını bağlamağı tələb edəcək.

Biz Rusiya ilə dostluq və əməkdaşlıq münasibətləri qurmaq niyyətindəyik, lakin Moskvanın son hərəkətləri bizi düşünməyə vadar edir. Bizə elə gəlir ki, Rusiya Ermənistanla Azərbaycan arasındakı münasibətləri biləərəkdən gərginləşdirir" (ATV).

Maraqlıdır ki, dünən Gürcüstanın xarici işlər naziri Salome Zurabişvili hərbi bazaların Gürcüstandan çıxarılması ilə bağlı Rusiya tərəfi ilə aparılan danışıqlarda Azərbaycanın da maraqlarını nəzərə aldıqlarını bildirib: **"Moskva sazişə bazaların Ermənistana köçürülməsilə bağlı bəndin salınmasında israr edirdi, lakin biz bu məsələdə güzəştə getmədik, həmin bəndin müqaviləyə salınmamağı müqabilində bazaların çıxarılması məsələsini bir qədər uzatdıq".**

XİN başçısının sözlərinə görə, Rusiya qrafiki pozmamaq üçün hərbi bazaları Ermənistana köçürmək istədiyini deyib: "Moskva bildirdi ki, əgər bazaları Qara dənizdən keçirib öz ərazimizə köçürsək, bu iş nəzərdə tutulmuş vaxtda başa çatmayacaq. Biz güzəştə getdik və onlara əlavə vaxt verdik ki, təki hərbi bazalar Ermənistana köçürülməsin. Ona görə bazaların köçürülməsinin maksimum müddətini 2008-ci ilə kimi uzatdıq ki, sonra Rusiya vaxt çatışmazlığı ucbatından bazaları Gümrüyə köçürdüyünü bəhanə etməsin. **Əgər hərbi hissələrin bir hissəsi belə Gümrüyə köçürülsə, burada məsuliyyət bizim deyil, Rusiyanın üzərinə düşür".**

Xanım Zurabişvili bu məsələni Bakı-Tbilisi-Ceyhan əsas ixrac kəmərinin Azərbaycandan keçən hissəsinin açılış mərasimində iştirak zamanı azərbaycanlı həmkarı Elmar Məmmədyarovla müzakirə etdiyini deyib: "Azərbaycan tərəfi bizim mövqeyimizi anlayışla qarşıladı. Bakının bu məsələ ilə bağlı notanı Gürcüstana deyil, Rusiyaya ünvanlaması reallıqlara uyğundur" *(APA).*

Qeyd edək ki, **artıq Rusiya bazaların Ermənistana köçürülməyəcəyi ilə bağlı Gürcüstanla əldə etdiyi razılaşmanı pozub. Dünən Batumi hərbi bazasından hərbi texnika və sursat yüklənmiş qatarlar Ermənistana yola düşüb.** 15 vaqon hərbi sursat Gümrü şəhərində dislokasiya olunmuş 112 saylı hərbi hissənin həyatinə boşaldılıb. Rusiya ordusunun cənubi Qafqaz üzrə nümayəndələri bildiriblər ki, Batumidəki hərbi texnikanın Gürcüstandan çıxarılması planı xarici işlər nazirliklərinin son razılaşmasından bir neçə ay əvvəl təsdiqlənib.

Bu arada məlum olub ki, hərbi bazaların məhz gömrükdən keçirilməsi hələ bir qədər əvvəl Ermənistanla Rusiya arasında əldə olunan razılaşma əsasında həyata keçirilir. Bu barədə məlumat verən Ermənistan Müdafiə Nazirliyinin mətbuat katibi Seyran Şahsuvaryan eyni zamanda canlı qüvvənin Ermənistanda yerləşdirilməsi barədə danışıqların aparılmadığını da deyib. Qeyd edək ki, hazırda Batumi və Axalkalakidəki hərbi bazalarda ümumilikdə 1**50 tank, 240 zirehli maşın, 149 artilleriya qurğusu, 273 digər zirehli texnika və 6 minə yaxın hərbçi** var.

# ƏN AZ QƏZET OXUNAN ÖLKƏLƏR: AZƏRBAYCAN VƏ ERMƏNİSTAN

## GÜRCÜSTAN İSƏ BİRİNCİLƏR SIRASINDADIR

***Mayın 30-dan iyunun 1-nə qədər Seulda Dünya Qəzetçilər Birliyinin illik konfransı keçirilib.***

Konfransa dünyanın 82 ölkəsindən 1500 nümayəndə qatılıb. Üçgünlük tədbirdə dünya mətbuatı ilə bağlı aparılan son araşdırmaların nəticələri açıqlanıb. Təşkilatın açıqlamasına görə, dünya üzrə gündəlik qəzetlərin satışı ötən illə müqayisədə 2,1 faiz, reklamlardan əldə olunan gəlirlər isə 5,3 faiz artıb.

Avropa və ABŞ-da gündəlik qəzetlərin tirajları aşağı düşsə də, Hindistan və Çində - əksinə, artmaqdadır. Hər il **Çində 93,5, Hindistanda 78,8, Yaponiyada 70,4, Amerikada 48,3, Almaniyada 22,1** milyon tirajla qəzet çap olunur. ABŞ-da hər gün 55 milyon nüsxə qəzet satılır və hər nüsxəni təxminən 2,2 nəfər oxuyur. Əhalinin 55,5 faizi gündəlik çap olunan qəzetləri izləyir, 60 faizi qəzetləri əsas xəbər qaynağı kimi qəbul edir. Hazırda 2300 qəzet eyni zamanda İnternetlə yayımlanır. İnternetə girən hər 5 amerikalıdan biri qəzetlərin saytlarını ardıcıl izləyir. Əhalinin internetə daha çox maraq göstərməsinə baxmayaraq, qəzetlər hələ də öz reytinqlərini qoruyub saxlayır.

215 ölkədə qəzetlərin vəziyyətinin öyrənilməsinə yönəldilən araşdırmanın nəticələrinə görə, keçmiş sovet ölkələri arasında ən çox qəzet oxuyan ölkə **Litvadır**. Bu ölkədə hər 5 nəfərdən biri hər gün qəzet alır. Siyahının ikinci yerində **Estoniya**, üçüncü sırada isə **Latviya** qərarlaşıb. MDB məkanına gəldikdə isə lider hər 12 vətəndaşından birinin hər gün qəzet aldığı **Gürcüstana** məxsusdur. Sonrakı yerləri **Moldova, Ukrayna, Rusiya, Qazaxıstan, Azərbaycan** və **Ermənistan** tutur. Təşkilat İnternet qəzetlərinin güclənməsi, həmçinin bəzi qəzetlərin "A3" formatından "A4"-ə, yəni "bulvar" tipinə keçməsinin də tiraj artımına təsir göstərdiyini vurğulayıb.




Dünyadakı **6580** gündəlik qəzetin ötən il toplam gündəlik satışı **395 milyon** nüsxə olub. Tiraj və oxucu artımı baxımından ən yaxşı göstərici **Asiyada 4,1, Cənubi Amerikada 6,3** və **Afrikada 6** faizdir. Hazırda **Çində 93,5 milyon, Hindistanda 78,8, Yaponiyada 70,4, ABŞ-da 54,6, Almaniyada isə 22,1 milyon** qəzet satılır. Dünyanın çox satılan gündəlik qəzeti isə Yaponiyada çap olunur. Bu qəzetin satış göstəricisi **14,02 milyon nüsxədir**.

Avropada qəzetlərə olan marağın azalmasına baxmayaraq, Norveçdə hər min nəfərdən 651-i qəzet oxuyur. Bu göstərici Yaponiyada 644 nəfərdir.

Təşkilat bir sıra maraqlı faktları da üzə çıxarıb. Bəlli olub ki, hazırda *Özbəkistanda qəzetlərdə elan, ulduz falı və köşə yazılarının dərc olunması yasaqdır*. ***Qvineyada*** isə mətbuat olmadığından ***qəzetlər "kseroks" vasitəsilə*** çıxarılır. ***Mozanbikdə*** gündəlik qəzetlər ***faks vasitəsilə*** yayılır. ***Hindistanda 18 fərqli dildə çıxan qəzetlərin arasında bəziləri eyni anda 2 və ya 3 dildə*** yayılır. ***İordaniyadakı*** mövcud qanunvericiliyə görə isə ***qəzet redaktoru olmaq istəyən şəxsin ən azı 10 illik jurnalist stajı olmalıdır***. ***Büdcəsi 700 min dollardan az olan qəzetlər ölkənin İnformasiya Nazirliyində rəsmi qeydiyyata alınmır.***

**Azərbaycana gəldikdə,** təşkilatın yaydığı sənəddə göstərilir ki, **ölkədə 24 vətəndaşdan yalnız birinin hər gün qəzet almağa imkanı çatır**. Yəni **Azərbaycanda mətbu orqanların sayı və tirajı kifayət qədər olsa da, oxucu sarıdan korluq var**. Təşkilat bunun səbəblərini ölkənin iqtisadi durumu ilə əlaqələndirsə də, qeyd olunur ki, **iqtisadi cəhətdən Azərbaycandan xeyli geridə qalan ölkələrdə qəzet satışı çox yüksəkdir**. Ədliyyə Nazirliyinin son məlumatına görə, indiyədək Azərbaycanda 1**813 kütləvi informasiya vasitəsi dövlət reyesterində qeydiyyatdan keçib**. Bunlardan **1749-u qəzet və jurnal, 36-sı televiziya və radio, 28-i informasiya agentliyidir**. Qeydə alınan qəzet və jurnalların yalnız 5 faizə yaxını fəaliyyət göstərir. Bəzi ekspertlər ***qeydiyyatdan keçən qəzet və jurnalların çoxluğunu media üçün əlverişli şəraitin olmasıyla deyil, çap mediası üçün qeydiyyatın sadələşməsi ilə əlaqələndirib.*** Televiziya və radio qeydiyyatına gəldikdə isə **15 özəl telekanaldan 4-ü Bakı şəhərində fəaliyyət göstərir. 2 dövlət və 9 bölgə televiziyası** da əhalinin xidmətindədir. Bu göstərici indiki Azərbaycan reallığı və oxucusu üçün çox qəribə görünə bilər. Bu qədər qəzeti oxuyan varmı? Əslində, heç kimə sirr deyil ki, bu qəzetlərdən uzağı **25-30-u ictimai rəyə təsir göstərir və özünün oxucu kütləsi var**. Onların tirajının nə qədər olması haqqında da qəti bir söz demək olmaz. Çünki qəzetlərin göstərilən tirajları çox vaxt reallıqdan fərqlənir. Amma Azərbaycandan fərqli olaraq, inkişaf etmiş bir sıra ölkələrdə, xüsusilə Amerika, İngiltərə və Rusiyada belə məsələlərə xüsusi fikir verilir. Bunu bir neçə amil, ən əsası reklam bazarı diktə edir.

Təşkilat eyni zamanda, **Azərbaycanın mətbu orqanlarının əksəriyyətini "siyasiləşmiş" qəzetlər adlandırıb**. Sənəddə qeyd olunur ki, ölkənin mətbu orqanları maliyyə baxımından siyasi partiyalardan asılı vəziyyətdə olduğundan, onlar müstəqil deyil. Ona görə də hakimiyyət ölkədə azad mətbuatın mövcud olması üçün nə qədər səy göstərsə də, bunu əldə etmək mümkün olmur. Çünki bunu qəzetlərin özləri istəmir. ***(X)***

## HAVANIN TEMPERATURU 32-36 DƏRƏCƏ OLACAQ

**İyunun birinci ongünlüyündə hava şəraiti qeyri-sabit olacaq, şimşək çaxacaq, Böyük və Kiçik Qafqazın ayrı-ayrı yerlərində leysan yağışları yağacaq.**

**Ölkənin bəzi qərb rayonlarında dolu düşəcəyi, qərb və şimal-qərb küləyinin güclənəcəyi gözlənilir. Temperatur normadan 1-3 dərəcə aşağı olacaq. Ayın ikinci ongünlüyündə havanın temperaturu tədricən artaraq, iqlim normasına yaxınlaşacaq. Dağlıq və dağətəyi rayonlarda axşam və gecə şimşək çaxacağı və qısamüddətli yağış yağacağı gözlənilir.**

**İyunun üçüncü ongünlüyündə hava isti keçəcək, maksimum temperatur 32-36 dərəcəyə çatacaq. Bu, iqlim normasından 2-3 dərəcə çoxdur. Dağlıq və dağətəyi rayonlarda gecə saatlarında şimşək çaxacağı, qısamüddətli yağış yağacağı gözlənilir.**

**Bakıda və Abşeron** yarımadasında havanın orta aylıq temperaturu +22-23 dərəcə (gecə +12, ikinci və üçüncü ongünlükdə +20-23 dərəcə, gündüz +22-24, üçüncü ongünlükdə +32-35 dərəcə), yağıntının səviyyəsi normadan artıq (9-12mm) olacaq. Yağışlar, əsasən birinci ongünlükdə yağacaq.

**Naxçıvan MR-da** havanın orta aylıq hərarəti +21-23 dərəcəyə çatacaq (gecə +14-19, gündüz +26-31, bəzi günlər +33-36 dərəcə), yağıntının səviyyəsi normaya yaxın (21-35 mm), bəzi yerlərdə normadan artıq olacaq.

**Yuxarı Qarabağda, İstisu-Laçında, Daşkəsən-Gədəbəydə** havanın orta aylıq hərarəti +14-19 (gecə +9-14, gündüz +18-23 dərəcə olacaq, ayrı-ayrı günlərdə +25-27 dərəcəyə qalxacaq), yağıntının səviyyəsi normaya yaxın (86-130 mm), bəzi yerlərdə normadan artıq olacaq.

**Qazax-Gəncədə, Ağdam-Füzulidə** orta aylıq hərarət +20-22 dərəcə (gecə +15-19, gündüz +24-29, ayrı-ayrı günlərdə isə +30-34 dərəcə), yağıntının səviyyəsi normaya yaxın, ayrı-ayrı yerlərdə normadan artıq (50-63 mm) olacaq.

**Balakən-Şəki-Qəbələ, Şamaxı-İsmayıllı, Quba-Qusar-Xaçmazd**a orta aylıq temperaturun +17-21 dərəcə (gecə +12-17, gündüz +20-25 dərəcə, ayrı-ayrı günlərdə +27-32 dərəcə), yağıntının səviyyəsinin normaya yaxın (18-129 mm), bəzi yerlərdə normadan artıq olacağı gözlənilir.

**Mərkəzi-Aran** rayonlarında orta aylıq hərarət +22-24 dərəcə (gecə +16-21, gündüz +25-30, bəzi günlərdə +32-36 dərəcə), yağıntının səviyyəsi normaya yaxın (12-50 mm), bəzi yerlərdə normadan artıq olacaq.

**Masallı-Lənkəran-Astarada** orta aylıq temperatur +21-23 dərəcə (gecə +15-19, gündüz +25-29, bəzi günlərdə +33 dərəcə) təşkil edəcək, yağıntının səviyyəsi normaya yaxın (29-47 mm), bəzi günlərdə normadan artıq olacaq.

# PREZİDENTLƏRİN ON İKİ NAMƏLUM XÜSUSİYYƏTİ

**Prezidentlər Amerika Birləşmiş Ştatlarına başçılıq etməklə yanaşı, yüksək eridusiyaları, istedadları, qeyri-adilikləri ilə nadir şəxsiyyətlər idilər. Çoxlarınız onların super dövlətin tarixindəki xidmətlərini bilirsiniz, amma heç birinizin AĞLINA GƏLMİR Kİ,**



*1)* ABŞ-ın ilk prezidenti **Corc Vaşinqton** orduda onun Amerikanın kralı elan edilməsi kompaniyasının qarşısını alıb.

*2)* **Enryu Cekson** - ABŞ-ın yeddinci prezidenti onun nigahı barədə təhqiredici çıxışına görə, naməlum Çarlz Dikinsonu duelə çağırıb. O öz rəqibinə imkan yaradıb ki, birinci atəş açsın. Ona görə ki, yaxşı nişan almaq üçün vaxt qazanmaq istəyirdi. Qarnından yaralanmasına baxmayaraq o, rəqibinin ürəyindən nişan alıb atmış və onu yerindəcə öldürmüşdür.



*3)*Deyilənlərə görə, ABŞ-ın on beşinci prezidenti **Ceyms Byukenen** özünün balaca ayaqları ilə qürurlanırmış. Lakin o, olduqca irigövdəli kişi idi. Eləcə də Cənab Ceyms Ağ evin ilk subay sahibi olub.



*4)* ABŞ-ın on altıncı prezidenti **Avraam Linkoln** məktub, hesab və başqa kağızlarını silindirinin içində gəzdirirdi və bu vəziyyətin portretlərində əks olunmasından xoşlanırdı.



*5)* ABŞ-ın on səkkizinci prezidenti **Uliss Qrant** uşaqlıqda Hayram Uliss G(Q)rant adını daşıyıb. O, sonralar "Hayram" sözü-nü ona görə ixtisar edib ki, ***HUG*** (bu ifadə ingilis dilində *"qucaqlaşmaq"* deməkdir) inisialından acığı gəlirdi.



*6)* ABŞ-nın iyirminci prezidenti **Ceyms Qarfild** poliqlot idi və hər iki əli ilə eyni zamanda iki dildə (məsələn, bir əli ilə latınca, digəri iləsə yunanca) yazmağı bacarırdı.



*7)* ABŞ-ın iyirmi yeddinci prezidenti **Uilyam Taftın** çəkisi 135 kq. idi və Ağ evdə onun üçün xüsusi nəhəng vanna düzəltmişdilər.



*8)* ABŞ-ın iyirmi səkkizinci prezidenti **Vudro Vilson** Birinci Dünya müharibəsi çağlarında qoyun sürüsünün Ağ evin qarşısındakı çəmənliyi batırmasına icazə vermişdi. Çünki onların yunundan əldə edilən gəliri o, "Qırmızı Xaç"a bağışlayırdı.



*9)* ABŞ-ın otuz səkkizinci prezidenti **Cerald Ford** "Qrin Bey Pekerz" və "Detroyt Layonz" kimi professional futbol klublarında çıxış etmək təklifini rədd etmişdi.



*10)* ABŞ-ın qırxıncı prezidenti **Ronald Reyqan** gəncliyində İllinoys ştatında sahil xilasedicisi vəzifəsində işləyərkən suda batıb boğulan 77 adamı ölümdən qurtarmışdı.



*11)* ABŞ-ın qırx ikinci prezidenti və həris qolfçu **Bill Klinton** özünə çox axmaq şöhrət qazanmışdı. O, qolfa təkrar-təkrar zərbə endirməkdən yorulmur və bununla başqalarına oyunda iiştirak etmək imkanı yaratmırdı. Doğrudur, o, prezidentlər arasında yeganə şəxsdir ki, gəncliyində Oksfortda təhsil almaq üçün maddi yardım la mükafatlandırılmışdı. Bill tələbə dostları arasında xalları yaradıcılıqla hesablamağın ustası idi. Belə ki, bir dəfə o, 200 zərbə endirməsinə baxmayaraq özünə 82 xal yazmışdı.



*12)* ABŞ-ın qırx üçüncü prezidenti **Corc U. Buş** bir vaxtlar atasını idmançı kimi məşhurlaşdıran və tələbələrin liderinə çevirən hazırlıq məktəbində təhsil alıb. Tələbəlik çağlarında yarışlara böyük maraq göstərdiyindən azarkeşlər qrupuna başçılıq edib. Kiçik Buş "hiyləgər" ləqəbini daşıyırmış. O, uşaq beysbolu üzrə oyun liqası da yaratmışdı. Bax, indi aydınlaşır ki, C.Buşu Tiflisdə Qafqaz rəqsinə oynadan hansı həvəs imiş.



***R.Q.***

# DÜNYANIN ƏN QOCAMAN VƏ GƏNC PREZİDENTLƏRİ

| Sırası | Ölkə | Prezidentin adı | Yaşı* |
|---|---|---|---|
| 1-2 | İtaliya | Çampi Karlo Adzelio | 84 |
| 1-2 | Fici | İloilo Yosef | 84 |
| 3-4 | Zimbabve | Muqabe Robert Qabriel | 80 |
| 3-4 | Laos | Sipxandon Kxamtay | 80 |
| 5 | Efiopiya | Voldeqiorqis Qirma | 79 |

**Prezidentlərin bütöv yaşı 1 yanvar, 2005-ilin məlumatına əsasən hesablanıb.*



Dünyanın 140 dövlətinin başında prezident durur. Statistik məlumatlara əsasən, dünya prezidentlərinin orta yaş həddi 59,8 - dir.

Ən qocaman prezident titulunu isə Yer kürəsində hazırda iki ölkənin başçısı tutur. Bunlar yaşları 84-ü haqamış İtaliya prezidenti **Çampi Karlo Adzelio** və Fici prezidenti **Yosef İloilodur**. Zimbabve (**Muqabe Robert Qabrie**) və Laosun (**Sipxandon Kxamtay**) başçıları birincilərdən dörd yaş kiçikdirlər. Nəhayət, Efiopiyanın 79 yaşlı lideri **Voldeqiorqis Qirma** beşinci yeri tutur.



Yəqin o da maraqlıdır ki, dünyada yaşına görə ən gənc prezident kimdir? Bu il Konqo Demokratik Respublikası prezidenti **Jozef Kabilanın** 33 yaşı tamam olur. Gürgüstan prezidenti **Mixail Saakaşvili** və Azərbaycan dövlətinin başçısı **İlham Əliyev** də gənc prezidentlər sırasında dururlar.

***R.Q.***

**Kinosenarist Qleb Ryabov 1989-cu ildə sensasiyalı elan verdi: II Nikolay və ailəsinin qalıqlarını tapıb. Xəbər-yayılar-yayılmaz rus emiqratlarının birinci axını və çar nəslinin davamçıları tərəfindən xarici ölkələrin ekspert komissiyası yaradıldı. 1995-ci ildə məşhur alimlər Koltıpin-Vallovski, Yevgeni Maqerovski və hazırda mərhum knyaz Aleksey Herbatov Rusiya federasiyası hökumətinin dəvəti ilə çar ailəsinin qalıqlarını identifikasiya və dəfn edən Dövlət komissiyasının plenar iclasında iştirak etdilər. Çarın və ailəsinin qalıqları Sankt-Peterburqda təzədən torpağa tapşırıldı. O vaxtdan romanovlar ailəsinin qalıqları ətrafında mübahisələr səngimək bilmir. Söz-söhbət gəzir ki, yeni qəbirdəki sür-sümüklər romanovlarınkı deyil.**

# ROMANOVLARIN BASDIRILAN QALIQLARI SAXTA İMİŞ



Deyilənlərin təsdiqi üçün çox gözləmək lazım gəlmədi. Bu yaxınlarda Amerika və Rusiyanın böyük alimlər dəstəsi Stenford universitetində və Los-Ancelesdəki Milli laboratoriyada bioloji nümunə əsasında yoxlama aparıblar. Çarın bacısı Aleksandra Fedorovnanın Yerusəlimdəki müqəddəs Yelizavetta məqbərəsindən götirülən dəlillər əsas götürülüb. Araşdırmanın müəlliflərindən biri, REA-nın ümumi genetika institutunun əməkdaşı, elmlər doktoru Lev Jivotovski deyir ki, "Biz dövlət komissiyasının çariçaya aid etdiyi qalıqlarla Aleksandra Fedorovnanın DNK-sını tutuşdurduq və məlum oldu ki, onlar bir-birindən çox fərqlidir". Əslində iki bacının mitohondirial DNK-sı tamamilə bir-birinin eyni olmalı idi.

Alimlərin əllərində şübhə doğuran başqa faktlar da var. Orqanizmin ölümündən sonra DNK-nın sürətlə deqradirovatğ başlanır. Lakin üzə çıxıb ki, çariçanın ehtimal olunan qalıqlarının DNK-sının nukleotidlər zəngiri toxunulmaz qalıb. Bu hadisə nadir hallarda baş verə bilər. Əgər qalıqların tapıldığı Yekatirnburq əbədi buzların altında yerləşsəydi, onun toxunulmazlığına inanmaq mümkün idi. Komissiyanın rəyində göstərilir ki, 1994-cü ildə əldə edilən DNK-nın analizinin səhvləri məhkəmə-tibb prosedurlarının ciddi şəkildə pozulmasından xəbər verir. İş tələblərlə uyğun aparılmayıb. Beləliklə, alimlər qrupunun başçısı Petr Koltıpin-Vallovskinin dediyinə görə, bacıların DNK-larının üst-üstə düşməməsi faktı qalıqların romanovlar ailəsinə dəxli olmadığını sübuta yetirir.



**Hazırda komissiya əldə olunan dəlillərə əsasən Dövlət Dumasını II Nikolayın ailəsinin qalıqlarının yenidən basdırması faktını inkar etməyə çağırır.**

**R.Q.**

**Bacarıqlı hara, işsizlik hara?!**
**Sən ağıllısansa, niyə kasıbsan?!**
*Amerikanlıların deyimi*

# VARLANMAQ ELMİ

**Biz uşaqlıqdan ana dili, ədəbiyyat, riyaziyyat, fizika, kimya və sairə kimi elm sahələri ilə orta məktəbdə tanış oluruq. Ali məktəblərdə isə fəlsəfə, psixologiya, sosiologiya kimi bir qədər çətin sahələri öyrənirik. Bütün bunlardan başqa da elmlərin mövcudluğunu eşidirik. Ancaq "*varlanmaq*" adlı tədqiqat sahəsini nə görürük, nə də eşidirik. Görəsən niyə? Bəlkə o insanlara lazım deyil? Necə lazım deyil ki, "sağlam və çox yaşamaqla" bərabər, bütün insanları daim düşündürən ən vacib iki məsələdən biridir o?! Bəs elə isə niyə min illiklər boyu filosoflar bu sahəni elm kimi tədqiq etməyiblər? Yəqin ona görə ki, tapa bilməyiblər bu məsələnin həlli yollarını. Bir qədər dərin düşünsək, belə bir müəmmalı gerçəkliklə üzləşərik: varlılar filosof, filosoflar isə varlı olmayıb və indinin özündə də deyillər! "Belə olduqda neynirəm elmi, savadı?!" - deyənlərə haqq qazandırmaq olarmı? Bir tərəfdən baxdıqda - yox! Ona görə ki, iqtisadiyyat, maliyyə, marketinq, planlaşdırma kimi bilik sahələrinə malik olanlar savadsız işbazların bir çoxuna üstün gəlirlər. Biz "çoxuna" ifadəsini şərti götürməmişik. Çünki savadlılar həmişə savadsızları "tapdaya" bilmir. Bir sıra hallarda isə tam əksinə alınır. Əgər ətrafınızdakılərə fikir versəniz görərsiniz ki, həqiqətən də dövlətlilərin tərkibində oxumuşlar da var, bisavadlar da. Ancaq qəti demək olar ki, dövlətlənmək üçün savad heç vaxt lazımsız olmayıb, əksinə, yardımçılıq edib. Ancaq onun ən əsas amil olması rəyi də düz deyil. sadəcə olaraq kim isə bu, digəri isə o biri yolla pullanır.**



Yeri gəlmişkən, 3 il əvvəl britaniyalı sosioloqların ən varlı ingilislər barədəki araşdırmalarının nəticəsini açıqlamaq istərdik. Məlum olub ki, onların 90 faizi əvvəllər pis oxuyan və ya dəcəl uşaqlar olub! (?) Dünyanın ən varlı 400-500 milyardçıları da bu qanunayuyğunluğa "sadiq qalıblar". Məktəb illərindən istedadlı və əlaçı şagird olan Bill Qeyts onların arasında nadir istisnalardan biridir. Bu amil savad barədədir, şıltaqlıqda yox. Uilyam (Bil Qeysin əsl adı belədir) şıltaq əlaçı olub. Bu araşdırmalardan ən nəzərəçarpan bir fakt ortaya çıxır: varlılar ümumi davranış normalarının intizamlı icraçıları olmurlar (ancaq onu da nəzərə almaq lazımdır ki, bu araşdırmalar öz, əməyi ilə pullananlara aiddir, valideyinlərinin, yaxın qohumlarının vərəsəlik ilə qəfil varlılananlara onun dəxli yoxdur). Bəs görəsən bu müəmmanı psixoloqlar, sosioloqlar, filosoflar nə ilə izah edirlər?

Onların çoxunun fikrinə görə nəticə belə də olmalıdır. Çünki ictimai etik normalar birgəyaşayış üçün orta məxrəcli davranışlardır. Uşaqlıqdan belə qaydalardan bir addım da kənara çıxmayanlar ömürlük belə də qalırlar. Varlanmaq üçün isə əksəriyyətin bilik və qabiliyyətini üstələmək lazımdır. Ona da ancaq ipə-sapa yatmazlar, ağlına nə gəldi edənlər, inadkarlar və s. bu qəbil adamlar qadirdir. Məhz onlarda olur ağlagəlməz ideyalar, başqalarının risq edə bilmədiyi cəsarətli addımlar, cəld, çevik fəaliyyətlər. Əlbət ki, belələrinin çoxu ya türmələrə düşür, ya da başı daşa dəyərək rəzalətdə çürüyür. Ancaq tək-tükləri düz istiqamətli sıçrayış etdiyindən bütün siravi və ya nümunəvi centlimen təbiətliləri kölgədə qoyur. Ataların dediyi " Dəlidən doğru xəbər!", "Ağıllı fikirləşincə dəli dağ aşdı" - sözləri belələrinə aiddir. Dünyanın ən varlıları arasında üzə çıxan bu gerçəklik varlanmanın əsas yolunu göstərir. O da "başqalarının ağlına gəlməyənləri tapıb, cəsarətlə onu həyata keçirməkdir!". Əks təqdirdə, ən yaxşı halda tərifəlayiq nizam-intizamlı firma, ofis, idarə işçisi kimi qalacaqsınız: heç vaxt müstəqil olaraq çoxlu pul qazana bilməyəcəksiniz! Bir qədər də qısa desək, başqalarından çox qazanmaq üçün onların görə bilmədiyi ideyanı tapmaq lazımdır. Ancaq elə bilməyin ki, bundan sonra arxayın pul "qazanacaqsınız" - Xeyr a! Ona nail olmaq üçün işin xüsusiyyətindən asılı olaraq savad və ya təcrübə gərəkdir. Əks təqdirdə hətta ən dəyərli tapıntı da boşa çıxacaq, ya da onu sizdən oğurlayıb işləyəcəklər. Məsələn: tutaq ki, siz, hər şeyin satıldığı bazarda istidə susuzluqdan yanan satıcılara limonlu çay, sərin qazlı su, dondurma xidməti göstərməklə yaxşı pul qazanmaq yolunu fikirləşmisiniz. Başqasının görmədiyi bir servisi yerinə yetirmək üsulunu bilməsəniz, belə gözəl ideyanın sizə, nə xeyri?! Xüsusilə də bazarda, su köşkü qoymağa, çayxana açmağa imkan yoxsa və ya olsa da sizin gücünüz çatmayan pula başa gəlirsə nə edəcəksiniz? Heç nə, elə deyilmi?! Bəs onda nə etməli? Çox sadə, peşəkar çayçı və ya su, dondurma satanla məsləhətləşməli! Ancaq bir şərtlə: iş açmaq istədiyimiz bazar çayçısı, su və dondurmasatanı ilə yox, başqa yerdə işləyən peşəkarlarla. Çünki çayxananın da, köşkdə su, dondurmasatanın da belə ideya ya ağlına gəlmir, ya da alverlərinin azalacağına görə sizə bu xidmətin yolunu deməyəcəklər: Birinci halda tez özləri onu həyata keçirəcək ("Adı sizin, dadı onların" prinsipi ilə), ikinci halda isə sizi daim izləyib bazardan çıxarmağa can atacaqlar ("mənim meydanımda sən at oynatmaq istəyirsən?!" - amalına görə). Ona görə də lap yaxın dostunuz, qardaşınız da olsa potensial iş rəqibinizə prespektivli planlarınızı açmayın. Yalnız kənar peşəkardan iş perspektivli öyrənəndən sonra arxayın işə başlaya bilərsiniz. Belə etsəniz görərsiniz ki, peşəkarların ağlına gəlməyən meydanı tapıb, onların məsləhəti ilə tətbiq etdiyiniz üsulla asanlıqla pullana bilərsiniz. Çünki biləcəksiniz ki, bu məqsədlə nə çayxana, nə də su, dondurma köşkü açdırmaq, hardansa, nə isə alıb gətirmək lazım deyil: ofisiant arabacıq alaraq, çayxanadan çay, köşklərdən qazlı, sərin su, dondurma götürüb satıcıların qabağında araba sürə-sürə pul "qırmaq" çox asandır. Axı xidməthaqqına görə aldığınız azacıq artıq haqq üst-üstə yığıldıqda filan qədər edəcək. Əgər tənbəllik etsəniz balaca əməkhaqqı ilə işçi tutaraq əlicibində də qazana bilərsiniz!

Biz burada kasıb Azərbaycan mühitinə əsaslanaraq sadə bir misalla hər şeyin satıldığı, hər yerin tutulduğu məkanda pullaşmaq üçün ideya tapmağın və onu tətbiq etməyin mənzərəsini verdik. Satışda, xidmətdə, istehsalda, elmi ixtirada və sairə sahələrdə, onları tapıb istifadə edənlər varlanır, belə incəlikləri görməyənlər isə ya kasıb qalır, ya da ortabab. Ona görə də "Çox oxuyan çox qazanar!" mifinə uyaraq illərlə vaxtınızı çətin elmləri öyrənməyə sərf etməyin: "Gəlir yerini tapan varlanar!" həyat aksiomuna əməl edin. Əgər ətrafınıza nəzər yetirsəniz bu həqiqətə inanarsınız. Əlbət ki, belə axtarış və iş vaxtı lazımi kitabları oxuyub, mütəxəssiz məsləhətlərini öyrənsəniz lap yaxşı. Amma oxuyub öyrənməyə, vaxtınız və imkanınız olmasa da itki böyük deyil: oxumuş mütəxəssizləri işə cəlb etməklə varlanırsınız. Yadınıza salın rəhmətlik, savadsız Hacı Zeynalabdin Tağıyevi! Onun əlinin altında neçə-neçə savadlı, ziyalı mütəxəssiz işləyirdi?!

Nəyin sayəsində Hacı milliyonçu olmuşdu?. Borcla şərikli torpaq alıb, oradan "qara qızıl" çıxacağına inam ideyasına görə! Bəs nə üçün onun şəriki varlana bilmədi? Ona görə ki, bir neçə günlük qazıntıdan sonra neft çıxmadığından quyunu prespektivsiz sayaraq torpağı satmaq qərarına gəldi (onu rəhmətlik Hacı alıb öz payına qatdı). Məhz "pul çıxan" yeri görmək, səbr, hövsələ və təkidlə onu istifadəyə vermək, bu yolda mütəxəssislərə arxalanmaq, məxaric-məsarif məsələsini düz həll etməklə işi genişləndirmək, bədxərclikdən qaçmaqla varlanmaq və varlı qalmaq mümkündür. Bu şərtlərin hər hansı birini nəzərə almayanlar ya dövlətlənə bilməz, ya da ona nail olsa çox tez müflisləşər.

Biz sonrakı yazılarımızda Amerika, Almaniya və Yaponiyanın bir çox milyonçularının "kasıbçılıqdan-varlılığa" yolunu izləyəcək, onların nəticə və tövsiyyələrindən söz açacağıq. Hələlik isə yaddan çıxartmayın ki, varlanmaq elminin predmeti "başqalarının görə bilmədiyi pul dəliyinin yerini sezmək və onu oradan məharətlə çıxartmaqdır". Soruşa bilərsiniz ki, bəs bu qeyri-adi görücülük məharətinə malik olmağın hansısa düşüncə üsulu var, yoxsa o anadangəlmə fitridir. Sözsüz ki, fitrilər var, ancaq bu elm də məhz onların təcrübəsindən götürüldüyündən konkret qanunlar da sistemləşdirilib. Nədir onlar?

**P.S. Gələcək saylarımızı izləsəniz, onlarla tanış ola bilərsiniz.**

***Ağakişi Bahaduroğlu***



Ulu babalarımız üçün əl çirki olan pul əski çağlardan mal dövriyyəsinin simvolu, hər cür maddi əşyanın ekvivalenti və ticarətin, var-dövlətin, sərvətin əsas atributlarından biridir. İbtidai çağlarda ov silahlarına, məişət, maldarlıq, əkinçilik alətlərinə tələbatın durmadan artması əmtəə dövriyyəsinin sürətlə inkişafına səbəb olub və pulu meydana gətirib. Əvvəllər alış-veriş natural şəkildə (heyvan dəriləri, dən, buğda, malqara, metal, saxsı məmulatlar, ərzaq bir-birinə dəyişdirilirdi), sonralar isə rəmzləşmiş formada, yəni xüsusi mis, qızıl və gümüş sikkələrin kəsilməsi, nəhayət, kağız pulların çapı ilə həyata keçirildi. Pullar böyük məbləğdə toplanıb döv-

# PUL
# əl çirkidirmi?

riyyəyə buraxılmaqla, sələmə, kreditə verilməklə gəlirə çevrilib, eləcə də var-dövləti maddiləşdirib (qızıl, gümüş, daş-qaş halında).

Pul gündəlik həyatda bütün maddi və mənəvi şeyləri əldə etmək vasitəsi, təminatlılıq rəmzi idi. O, bəlkə də yeganə varlıqdır ki, ancaq gerçək dünyada dəyərə, qüvvəyə malikdir. Çünki heç bir dini görüş o biri aləmdə pula yer ayırmır. Ona görə də bir vaxtlar Avropanın bəzi rahib ordenləri qəti şəkildə bildirib ki, "Pula toxunanlar yer üzünün bütün pisliklərini öz bədənlərinə keçirirlər". Bu xofdan qorxan varlılar çox hallarda sərvətinin bir hissəsini kasıblara paylamaqla günahlarını bağışlatmaq istəyiblər.

Bütün bunlara rəğmən pul hökmranlığa stimul yaradan gözəgörünməz qüvvədir. O elə gücə malikdir ki, ölkələri, şəhərləri, kəndləri yer üzündən silib apara, ailələri dağıda, oğulu ataya, qardaşı qardaşa qarşı qoya bilir.

Pul vahidlərinin özünün simvollaşmasına gəlincə, üsul və formaları olduqca müxtəlif və çoxdur. Metal və kağız pulların üzərində tanrılar, müqəddəs heyvanlar, səmavi kitablardan kəlamlar, maddi-mədəniyyət abidələri, hökmdarlar, görkəmli şəxsiyyətlər, həmçinin spesifik şərti nişanlar əks etdirilirdi. Belə ki, Amerika dolları mason işarələri (demokratiyanı bildirən kəsilmiş piramida və üçbucaqlar) ilə naxışlanır.

Dünyada ən işlək kağız pul $ - dollar ilk dəfə 1792-ci ilin 2 aprelində dövriyyəyə buraxılıb.

ABŞ-da birinci pul vahidi 24 qr. gümüş sikkə meydana gələndə üzərinə "S" işarəsi çəkilib. Bu, "solid" (roma pulunun qədim adı) sözünün ilk hərfi idi. Onun iki yanaşı şaquli xətlə birlikdə verilməsi ispanların gerbindəki "Herkules dirəkləri"ni xatırladır. Bu, əslində "S" və "P" hərflərinin monoqramıdır və "ship-peso" su deməkdir, yəni "gəmi pyesosu - pulu". $ işarəsinin həqiqi şərhi belədir ki, dollar "fəlsəfi daşı" tapmaq vasitəsi kimi yaradılıb.

Azərbaycan çoxsaylı pulları ilə zəngin ölkələrdən biridir. Ta qədimdən varlılar və gözütoxlar diyarıdır. Ulu əcdadlarımız pulu ona görə əl çirki sayıblar ki, jye heç kəs yığıb saxlamasın, vardövlət hərisi olmasın. Səxavət göstərib imkansızlara yardım göstərsin. Çünki yer sakinləri yığdıqlarını özü ilə o biri dünyaya aparmaq qüdrətində deyil.

**Ramazan Qafarlı**
*("Xəmsə" jurnalından)*

# Mehtər atı

**Əziz NESİN**

**İlk dəfə çap olunur**



Bizim bəxtimizə türk tarixinin ən önəmli bir dövrünü yaşamaq xoşbəxtliyi düşüb. Ya da ki, biz bu dövrü yaşamaq məcburiyyətində qaldığımız üçün bədbəxt insanlarıq. Bu dövr çox partiyalı demokratik dövrdür. Yəni biz də bu dövrdə yaşayırıq (*giriş kimi quru bir başlanğıcdır. Belə də hekayə olur? - Ə.N.*).

Bu "Mehtər atı" adlı hekayə belə bir olduqca quru və sıxıcı bir önsözlə başlayır. Çünki hekayənin müəllifi siyasətçilərimizin bir çoxu ilə mehtər atları arasında sıx bənzərlik olduğuna inanır (*Vicdan azadlığınız varsa inancıma diqqət, qayğı göstərmək məcburiyyətində qalacaqsınız. Halınıza acıyıram.*)

Çox partiyalı dövrdə yaşadığımız 1945-ci ildən üzübəri gördüyüm siyasətçiləri iki yerə ayıra bilərəm. Səllimi ata bənzəyənlərə, mehtər atına bənzəyənlərə (Artıq söz demirəm deyərəm siyasətçilərin əlinə düşərsiniz...- Ə.N.)

Bildiyimiz kimi adına at, deyilən insan oğlunun ilk yoldaşı bu soylu heyvan minicisinin istəyi ilə hərəkət edir. Lakin mehtər atları belə deyil. Önündəki at gedərsə mehtər atı da gedən dayanarsa, mehtər atı da dayanar. Sonra bu mehtər atları nalının izində gedəcəyi atıda seçə bilməz.

Təki bu atın qarşısında hər hansı bir at olsun kürən, kəhər, qara kəhər, qırmızı kəhər şəkilli, boz at, ağ at istəyir, xalis ərəb atı olsun, necə olursa olsun, təki at olsun.

İstəyirsiniz hələlik siyasətçilərin yaxasını buraxıb mehtər atının əhvalatını yazım.

Hərbi məktəbə keçəndə bir iki birincilik dərsi, bir neçə minicilik dərsi, bir neçə dənə də minicilik təlimindən at minməyi öyrənmiş sayılırdıq. Biz İstanbul "Hərbiyyə"sinin son tələbələrindən idik. Bir gün təlim var dedilər. Bizi iki tabura ayırdılar, taburlardan biri "Qırmızı qüvvələr" o biri "Mavi qüvvələr" adlandırıldı. Bu qırmızı-mavi vuruşmasını heç bir zaman anlaya bilməmişəm. Çünki, hər nə olur olsun təlimin sonunda mavi qüvvələr məğlub hesab edilir. Baxmayaraq ki, mavi gözəl rəngdir. Mavinin yenilməsinə acıyıram.... (*Burası hekayənin ən maraqlı yeridir xahiş edirəm oxumamış keçməyin.*)

**(Hekayənin ikinci hissəsinə aid: Köhnə qaydalara əsasən manevr və əskəri təlimlərdə, hərbi oyunlarda, biz qırmızı, düşmən mavi rəngdə olurdu. Söylənilənlər doğru olsa 1972-ci ildən sonra rəngləri dəyişdirəcəyik. Qüvvələr mavi, düşmən qüvvələri isə qırmızı olacaq.)**

Heç bir təlimdə mavilərin qalib gəldiyi görünməyib çünki mavi düşməndir. Mən olsam düşməni yaşıl rəngə boyayardım. (*Necədir? Bəyəndinizmi burada ideologiya var axı.*)

Bəli mavi düşməndir. Düşmənin vəzifəsi də yenilməkdir. Evdəki hesabın çölə çıxması yalnız bu qırmızı-mavi toqquşmasında görülür. (*Əfəndim sən bu hekayəni uzatdın. Başa salacaqsansa başa sal qurtar bu Mehtər atını.*)

Baş üstə başa salaram. Mən qırmızı qüvvələrdən idim. Hamımıza bir yanı qırmızı, bir yanı mavi bez parçaları verdilər. Bu bez parçalarını şapkalarımıza dolayaraq iynələyib bərkitdik. Biz qırmızı qüvvələrdən olduğumuzdan şapkalarımızdakı işarə bezinin qırmızı tərəfini çölə çıxartdıq.

Məni qırmızı qüvvələrinin komandanının atlı xəbərçisi qoydular. Bu hər kəsə qismət olmayan bir iş idi. Yoldaşlarım çiyinlərində tüfəng təchizat gəzdirəcək, atlanacaqlar, sıçrayacaqlar, qaçacaqlar, saldıracaqlar çəkiləcəklər mənsə at üstündə.... Mehtər atına minəndən sonra işin heç də belə yaxşı olmayacağını başa düşdüm. Mehtər atına minməkdənsə, atlanmaq-sıçramaq, quş olub göydə uçmaq, balıq olub göldə üzmək daha asanddır.

Şəhərdən kənara çıxdıq. "Hüriyyəti Əbədiyyə" təpəsinin yanına açıq əraziyə gəldik (*çətin bir izah oralar qədimdən açıqlıqdı. İnsanın az, şeytanın çox olduğu yerlərdi*). Mavi və qırmızı qüvvələr yerlərini aldı. Mən qırmızı qüvvələr komandanının arxasındaydım. İkimizdə at üstündə olduğumuzdan oraya qədər heç bir hadisə baş vermədi. Altımdakı atı özüm sürdüyümü fikirləşirdim sən demə mənim mindiyim mehtər atı minbaşının atına görə gedirmiş.

Məyər yaşadığımız həyatda da belə ola bilməz ki? Hadisələrin könlümüzə uyğun getdiyini gördükdə onları özümüz edirik deyə fikirləşirik. İnsan oğlunun xoşbəxtlik saydığı budur. Amma hadisələr bizim istəyimizcə olmayanda acı gerçək başımıza takedərək dəyir (*Diqqət Qüssədən hissə. Bu da hekayənin fəlsəfəsi, yaxşıdırmı?*)

Qırmızı qüvvələrin komandanı olan minbaşı mənim ən çox sevdiyim Avropa minicilik yarışlarında qızıl medallar, kuboklar qazanan məşhur bir süvari idi. Üstəlik də olduqca sərt bir insan idi. Yəni şapkasının kakardasından tutmuş mahmızına qədər əsil minbaşı idi. Onu bircə dəfə min adamın üzdüyü, günəşləndiyi bir plyajda hər kim görsə:

-Bu bir minbaşıdır - deyər.

Dayanıb durmuşduq. Altımdakı at birdən hoppandı, mən yəhərin üstündən atın boynuna düşdüm. O dəqiqə heyvanın qulaqlarından yapışdım. Bu heyvana nə oldu belə? Yüyənini dartmadım, mahmızlamadım, vurmadım. Mən heç nə etməmişdim amma qarşımdakı minbaşı atını mahmızlamışdı. Onun atı gedən də mənim mehtər atım heç dayanar. Aman allah at məni hey atıb tutur. Yaxşı ki, at yenidən irəliyə atıldı, mən atın boynundan arxaya doğru getdim. Özümü yenə yəhərin üstündə hiss etdim. Bəli yəhərdəyəm, amma yəhərin üstündə dura bilmirəm. At məni sıçradıb sağrısına, oradan da boynuna atır. Bunun ən yaxşısı yerə düşüb bir dəfəlik canını qurtarmaqdır. Onu da edə bilmirəm çünki o zaman komandanın xəbərçisiz qalacaq. Qışqırsam ayıbdır... Yüyəndən asılıram, yəhərin qarşından yapışıram. Birdən yüyən əlimdən çıxmadımı?.. Aman allah... Bir əlimlə yəhərin qaşından, o biri əlimlə atın yalından yapışdım... Sıralanan bölüklərin birinin qabağına gəldik. Burada atdan düşsən dostlarımın qabağında rüsvay olacağam.... Ata yalvarıram:

-Balam... gözünü yeyim... yavaş eşşək, yavaş namussuz...Çüş çüş çüş....çüş də nə olar.

İnsafsız mehtər atının mərhəmətə gəlmədiyini görüb allaha yalvarıram: Ay allah məni bu qədər adamın qabağında rüsvay etmə.

Allaha yalvarmaqdan başqa heç bir çarəm qalmamışdır. Yüyən əlimdən çıxıb, atda insaf qalmayıb başqa nə edə bilərəm. Ata minməyən adamlar bunu başa düşməzlər. Oturaq yerimi heç cürə yəhərin üstündə saxlaya bilmirəm. At məni minicinin oturduğu yerə qoymur, elə hey saman çuvalı kimi oyan bu yana fırladır. Yenə vicdanlı heyvanmış ki, qaldırıb yerə çırpmır, lap yerə düşhadüşdə hoplayıb yenə yəhərin üstünə qoyur.

Fələkətin daha böyüyü minbaşı atını saxlayanda oldu. Çünki onun atı dayananda mənim mehtər atımda iki ön ayağını yerə dirəyib yerində mıxlandı. Mən artıq özümdən xəbərsizdim. Bir onu hiss etdim ki, atın üstündən havalandım. Lap idman filimlərində olduğu kimi, o filimlərdə idmançı necə ustalıqla irəliyə doğru uçarsa mən də heyvanın boynunun üstündən uçtum, qarşımdakı Minbaşının atının arxa ayaqları altına (*Siz indi mənim bu dediklərimə qulaq asaraq, məni acizin biri hesab edirsiniz. Elə deyil vallah. İnanmırsınızsa dostlarımdan soruşun. Mən əvvəl məktəbimizin pramida taqkımında idim. Dostlarımın qurduğu 5 mərtəbəli pramidanın təpəsinə hop deyil çıxar, oraya bayraq sancardım. Bəyəndinizmi?*)

İlk işim yıxıldığımı görən oldumu deyib yan-yörəmə baxmaq oldu. Deyəsən görən yox idi. Heç kim gülmürdü. Yerdən fırlanıb atın yüyənindən yapışdım. Başladım heyvanı oxşayıb ona yalvarmağa:

-Ay mənim canım... Nə olar yavaş...

Atıldım belinə. Minbaşı bölük komandiri ilə danışdı. Sonra atını sürdü. Onun atı ki, getməyə başladı, daha mənimkini tutma... Mənim Mehtər atım ox kimi fırlandı. Bu dəfə yüyəndən elə yapışmışdım ki, qolum yerindən qopsada yüyən əlimdən çıxmasın. İndi yüyəni tutmaq asan idi. Yəhərdə isə hələ də otura bilmirdim. At məni çalxalaya-çalxalaya içimi-çölümə çıxartdı. Öldüm qurtardım. O biri bölüyün önündə minbaşı yenə atını saxlayanda, mənimki də yerə mıxlandı. Çalışmağımın heç bir xeyri olmadı, atın üstündə bu dəfə də dayana bilmədim. Havalandım, yenə oturdum. Buna oturmaq demək olmazdı. Çünki insanlar başlarının üstündə oturmur, insanın oturma orqanı başı deyil, başqa yeridir.

Yüyənin qayışlarını buraxmadığım üçün, yerə atılıram kimi atın üstünə sıçradım...

-Böyük Allah, məni utandırma.

Minbaşı atını sürdü. Bu dəfə dördnala, uçuruq. Ən rahatı dördnaldır (*çaparaq - B.M.*). Çünki dördnalda mənim kimi təzə minicilər çalxalanmır. Ehtiyyat bölüyün önünə gələndə minbaşı birdən atını saxladı. Mən yenə uçdum ki, bu dəfəki uçuş -Həzrəti- İsa uçuşu oldu. Allahını sevən kəs mənə gülməsin. Mən uça-uça bilirsiniz hara getdim? Qarşımda at üstündə duran Minbaşının belinə... Yer üzündə bir insan üçün bundan böyük bir tərslik olmaz. İndi Minbaşının atı üstündə 2 nəfərik Minbaşı və Xəbərçisi. Bəlalar içərisində insan oğlu yenə özünü ovundurmalıdır. Yaxşı ki, minbaşının arxasına düşdüm önünə düşsəydim....

Minbaşı başını çevirib:

-O nə? - deyə bağırdı.

Özümü yerə atdım.

-Əfəndim - deyib kəkələməyə başladım. Yaxşı ki, Minbaşı dərinə getmədi.

Öz atıma sıçradım. Minbaşı mənə beşinci bölüyə söyləmə biləcək bir əmr verdi. Atı beşinci bölüyün durduğu yerə sürmək istədim. Topuqlarımı nə qədər qarnına vurdumsa at getmədi. Qarşımdakı Minbaşı atını sürməyincə mənim atım tərpənmədi ki, tərpənmədi. Minbaşı atını başqa yerə sürən kimi, mənimki də onun arxasınca getməyə başladı. Minbaşı üzünü mənə tutub sərt:

-Mən sənə nə dedim? - dedi.

Səsimi çıxartmadım.

-Mən sənə "beşinci bölüyə" get demədimmi?

Yenə səsimi çıxartmadım.

-Nə durursan?

Mənmi dururam, yoxsa at durur, amma bunu Minbaşıya necə başa salım?

Minbaşı hirsləndi:

-Çəkil, çəkil... - deyə bağırdı. Sənin kimi xəbərçi mənə lazım deyil rədd ol!

Necə rədd olum anlamıram axı... minbaşının atının dalınca mənim atım uça-uça gedir.

-Ged oğlum, ged başımdan... Get də. Nə bəlasan sən, ay allah, rədd ol!

-Əfəndim... at getmir... mən gedərəm... amma... at... bu heyvan.

Minbaşının hirsli siması yumşaldı. Güldüyünü bildirməmək üçün başın yana çevirib:

-En atdan - dedi.

Atdan endiyim vaxt qarşıdan iki atlı bizə tərəf gəlirdi. Mənim atım o iki atı gördükdə dayanarmı? Necə bir fəlakət, necə bir bəla. Mən artıq var qüvvəmlə atdan düşməməyə çalışırdım. Elə uçurduq ki, yerə düşsəm parça-parça olacaqdım. Bəli sonda düşdüm də həm də bu dəfə sol ayağımı üzəngidən çıxarda bilmədim, yerdə sürünürdüm, ölə bilərdim. Ölməməyim qarşıda gedən iki atlının durmağından oldu. Onlar dayananda mənim mehtər atım da durdu. Sürüklənə sürüklənə ölməkdən qurtardım. Şalvarımın sol diz qapağı başdan-başa yırtılmış dizimdən durmadan qan axırdı.

Atdan enən süvarilər atlarını mehtər atıma verdilər. Mən də atıma mindim. Yenə atım qulaq-larını əyərək yerimməyə başladı. Ürəyim tir-tir əsirdi ki, qarşıdan yenə bir atlı çıxmasın. Çünki mənimki də onların ardınca qaçacaq. Elə də oldu. Mənim atım o gün harda qaçan bir at gördüsə ancaq onun dalınca yeridi. Mən bu mehtər atının belində təlim meydançasında ordan ora, burdan buraya gedirdim. Təlim meydançasında ora bura gedərkən necə oldusa mavi qüvvələrin arasına girdim. O dəqiqə şapqamdakı işarə lentini tərsinə çevirib, mavi rəngini üstə çıxartdım ki, canımı əsir olmaqdan qurtarım.

Yenə başqa atın arxasınca külək kimi gedən atım az qaldı ki, məni bir ağacın budağından assın. Ağacın budağı başımın üstündən çəpəki keçdi. Və artıq mən şapkamıda itirdim. Üzümü budaqlar cızıq-cızıq etdi və sonda dördnala çapan atım qarşıdan gələn atla toqquşdu. Bir anda gözlərimdə şimşək çaxdı, bir neçə dəqiqə özümə gələ bilmədim. Özümə gələndə yenə at üstündə olduğumu gördüm. Amma bu dəfə mehtər (seyis) atının yox ağ atın üstündə idim... Sən demə mənim mehtər atım qarşıdan gələn atla toqquşanda necə olubsa mən atımın üstündən fırlanıb, o biri atın üstünə düşmüşəm. Mənimlə toqquşan atın sahibindən isə xəbərim olmadı. Altımdakı ağ at əla bir at idi. İstədiyim yerə sürüb gedə bilirdim. Demək mehtər atı deyil idi!

Hara gedəcəyimi bilmirdim. Hara gəldi gedirdim. Amma pərişan idim. Sağ ayağımın tozluğu itmişdi. Ələ keçəcəyindən qorxurdum. Bir bölüyün içinə girdim. Bu zaman bir yüzbaşı:

-Bura gəl! - dedi.

Atdan endim. Salam verdim. Di gəl ki, başımda şapka, ayağımda da tozluq yox idi. Qayışım düşmüş, şalvar belimdən çıxmışdı. Şalvarımın sağ dizi də başdan-başa yırtılmış dizim qan içində idi... Üzümün cızıqlarından qan axırdı:

Yüzbaşı:

-Bu nədir, sənə nə olub?

Nə deyəydim. Yüzbaşının arxasında dostlarım dayanmışdı. Üzüntümü başa düşə biləcəyiniz üçün mənim o zamanki niyyətimi bilməlisiniz.

Mən general olacağam general...

-Əfəndim düşmən işinə girdim. Əsir etməsinlər deyə qaçdığım üçün belə vəziyyətə düşdüm...

-Sənin işin nədir?

-Xəbərçiyəm, sizə minbaşının əmrini gətirdim.

Minbaşının əmrini ona dedim. Amma kimə bilirsiniz? Mavi qüvvələrə. Çünki, mən qırmızı qüvvələrdən idim. Özümü itirdiyimdən qırmızı qüvvələrin komandanının əmrini mavi qüvvələrin komandanına söyləmişdim. Bu səhvimdən sonra, bütün işlər, birliklər, əmrlər bir-birinə qarışdı. Amma sonda hər zamanki kimi qırmızı qüvvələr yəni, yenə biz qalib gəldik.

İndi nə üçün bir çox siyasətçilərimizi Mehtər atına bənzətdiyimi başa düşmüş alarsınız. Çünki, bunlar öz özlərinə yeriyə bilmirlər, danışa bilməzlər, mütləq önlərində, kölgələrində gedəcək başqa bir siyasətçi olmalıdır.

**Türkcədən çevirəni: *Bəhram Məmmədov***
*ADPU-nun magistrı.*

# SAKLARIN ATLARINI YƏHƏRLƏDİYİ QƏDİM DİYAR

*(Əvvəli ötən sayımızda)*

***Hər şeyə qarşı ehtiraslıdır***. Məqsədinə çatmaq üçün dərisindən-qabığından çıxmağa hazırdır. Qərarından dönmür, daha doğrusu, tüpürdüyünü yalamır.

***Ailəcanlıdır.*** Arvad ərinə, ər arvadına həmişə sadiqdir. Xəyanəti heç biri bağışlamır. Övlad ailənin bel sütunudur.

***Qonaqpərvərdir***. Son tikəsini qonaq-qaraya yedirməkdən ləzzət alandır.

***Yeyib-içməyi, şirniyyatı, mer-meyvəni, ağartını sevəndir***.

Başqalarını geyindirib bəzəsə də, ev-eşiklərini cah-cəlala döndərsə də, özü təm-təraha, bər-bəzəyə aludə deyil, "insanın daxili gözəl olmalıdır, ənlik-kirşanla üz ağartmaq mümkün deyil" prinsipini əsas götürür. Lakin bağ-bağatda, gül-çiçək əkib-becərməkdə, mal-qara, toyuq-cücə saxlamaqda, biş-düşürdə, süfrə hazırlamaqda bəhsə girəndir.

**AŞIQ DAĞLARDA GƏZƏR...**

Şəkilinin elm, təhsil, texnika, təsərrüfat, istehsalat sahələri ilə bir sırada bədii yaradıcılıqda da böyük istedada malikliyi folklorun və yazılı ədəbiyyatın bütün rəngarəng qollarında özünü büruzə verir. Epik ənənəyə gəlincə, şəkilinin əhvalataları daha geniş təsvir etmək qabiliyyəti əyaniləşdirmə dərəcəsində çoxçalarlı və başqalarından fərqlidir. Lakin nədənsə, bəzi tədqiqatçılar açıqdan-açığa bildirirlər ki, Şəki üçün nağılçılıq və aşıq yaradıcılığı yaddır. Söz düşəndə belə yozurlar ki, Molla Cuma təsadüfi xarakter daşıyır. Ya da onu aşıq saymırlar. Halbuki, Molla Cuma xüsusi məktəb yaradıb, onun şagirdləri respublikamızın müxtəlif ərazilərində (Gəncə, Tovuz, Dərbənd, Zaqatala, Balakən, Qax, Borçalı, Göyçə və b.) yaşayıb fəaliyyət göstərirlər. Təsadüfi deyil ki, keçən əsrin ikinci yarısından başlayaraq çap olunan dərslik və mətbuat səhifələrindəki folklor nümunələrinin xeyli hissəsi Şəkidən toplanıb. Yüz əlli il əvvəl şəkili Abdulla Əfəndiyevin dilindən yazıya alınan laylalar, rus ziyalıları A.İoakimov, A.Kalaşev və başqalarının əldə etdikləri orijinal nağıllar, uşaq nəğmələri SMOMPK məcmuəsində, 1885-87-cə illərdə Nuxa qəzasından əldə edilən "Nour gölü haqqında rəvayət", "Müqəddəs kuzə" nağılı və b. epik nümunələr Rusiyanın mərkəzi mətbuat orqanlarında işıq üzü görmüşdür. Faktlar göstərir ki, Şəki Azərbaycan folklorununun bütün janrlarını sinəsində yaşadan bölgələrdən biridir. Daha dəqiq desək, kütləvi şəkildə xalq yaradıcılığı nümunələrinin toplanması, nəşri işi məhz Şəki bölgəsinin adı ilə bağlıdır. Təsadüfi deyil ki, Mirzə Fətəli özünün yaratdığı əlifbada xalq arasında gəzib-dolaşan məşhur bir nəğməni qələmə almaqla mübahisə obyektinə çevrilən qədim türk abidəsinə Azərbaycan möhürü vurmuşdur. Bu gün həmin kiçik xalq şerinin şahidliyi ilə "Kitabi-Dədə Qorqud" motivlərinin keçən yüzillikdə Azərbaycan xalqı arasında yaşadığı təsdiqlənir. Nəğməni məhz şəkili ağsaqqallar, ağbirçəklər öz sinələrində yaşatmışlar:

***Gəlinə ayran demədim***
***mən Dədə Xor-xut.***
***Ayrana doyran demədim***
***mən Dədə Xor-xut.***
***İynəyə tikən demədim***
***mən Dədə Xor-xut.***
***Tikənə yırtan demədim***
***mən Dədə Xor-xut.****

**RƏF, M.F. Axundovun arxivi, 120 saylı sənəd, səh. 32-33*

Əgər XIX yüzilliyin ortalarında Şəki camaatı dastanın baş obrazının əsas funksiyasını - ad qoymasını özündə əks etdirən nəğmə oxuyurdusa, deməli, eposdan süzülüb gələn başqa motivləri də bilməmiş deyildi.

Şəki nağıllarında elə dolğun obrazlara təsadüf edilir ki, həm mifik əlamətlərinə görə, həm də müasirlik baxımından diqqəti cəlb edir. Kür Həsən və keçələ aid nağıllar sanki Şəki lətifələrindən yoğrulub. Duzlu yumor və lətifəvarı hadisələr bölgənin təbiətini özündə əks etdirir.

Şəki həm də pirlər və övliyalar diyarıdır.

Yel babaya (Şəkidə Yel baba piri var) müraciətlə bir ananın oxuduğu şivəndə yaxın tariximizdə (Azərbaycanın zorla Rusiyaya birləşdirilməsi çağlarında) xalqımızın başına gələn müsibətlər əks olunur. Elə bil tarix yenidən təkrarlanır. Mahnını nəzərdən keçirəndə adamın gözləri qarşısında Qarabağ faciəsi durur:

***A Yel baba, Yel baba,***
***Tək qalmışam, gəl baba.***
***Yanaral atdı gəldi,***
***Çoxun qanatdı, gəldi.***
***Ova gedən Muradım,***
***Al qana batdı, gəldi.***
***A Yel baba, Yel baba,***
***Tək qalmışam, gəl baba...***

***İpim ipdən üzüldü,***
***Köksüm dibdən üzüldü.***
***Bircə gündə min cavam***
***Qara qəbrə düzüldü.***
***A Yel baba, Yel baba,***
***Tək qalmışam, gəl baba...***

***Ölsün dili yellilər,***
***Gəlsin əli bellilər.***
***Gor olsun bəd dillilər.***
***Sözüm, ahım yel oldu,***
***Gözümdə yaş sel oldu.***
***A Yel baba, Yel baba,***
***Tək qalmışam, gəl baba...***

***Bu günü bəklədilər,***
***Yerləri ləklədilər.***
***Elsizəm, təklədilər.***
***Halım yaman gündədi.***
***Gümanım tək səndədi.***
***A Yel baba, Yel baba,***
***Tək qalmışam, gəl baba.****

**Nəğmə bu sətirlərin müəllifi tərəfindən yazıya alınmışdır. İlk dəfə "Şəki folklor" toplusunda işıq üzü görmüşdür.*

Şəki bölgəsini aşıq mühitindən uzaqlaşdıranlar unudurlar ki, məhz 150 il qabaq işıq üzü görən məqalələrdə şimaldakı aşıq məclisi və deyişmə səhnəsi təsvir olunur. Rus müşahidəçisi şahidlik edir ki, burada aşıq oxuyanda, nağıl söyləyəndə dinləyicinin ətini kəssən xəbəri olmaz. Belə olduğu halda heç kəsin mənəvi haqqı yoxdur ki, Şəki-Zaqatala, Dərbənd bölgəsini aşıqsız və epik ənənəsiz ərazi elan etsin. Molla Cuma Azərbaycanda nadir hadisədir, hələ də onun həqiqi qiyməti verilməyib. Böyük söz-saz ustasının sənəti özünə qədərki və sonrakı aşıqlardan əsaslı şəkildə fərqlənməklə yanaşı qat-qat yüksəkdə durur. Sahibsiz qaldığından əsərlərini bir üzü Dərbəndə, bir üzü Bakıya, bir üzü Orta Asiyaya daşıyıb öz adlarına çap etdirmişlər. Belə bir aşıq ağac koğuşundan, yerdən çıxmayıb. Zəmin olmasaydı, yetişə bilməzdi. Və onun dərs aldığı ustadlar göyçəli, qarabağlı, qazaxlı deyil, şəkilidir. Hal-hazırda Molla Cumanın Gəncədə yaşayan istedadlı şagirdlərindən biri Aşıq Siracın dediyinə görə, sağlığında Azərbaycanın bütün bölgələrindən ustadın yanına məsləhətə gəlir, çox hallarda ona nağıl söyləməyi xahiş edirdilər. Molla Cuma dastana "nağıl" deyirdi, bu günkü toplularda nağıl kimi təqdim olunan epik əsərləri isə "qara nağıl" adlandırırdı. Təsadüfi deyil ki, Qazax-Tovuzlu bəzi aşıqlar, o cümlədən Xəyyat Mirzə bir çox məşhur dastanları Molla Cumadan öyrənmişdir... 1929-cu ilə aid bir topluda Aşıq Siracın söylədikləri təsdiqlənir, əlyazma dəftərlərinin titul səhifəsində yazılır ki, "Qandal Nağı" kimi qaçaq dastanını Xəyyat Mirzə Molla Cumadan eşitmişdir. Lakin acınacaqlıdır ki, dağıstanlı Aşıq Soltan nə yollasa, Molla Cumanın şerlər dəftərini ələ keçirib öz adına çap etdirmişdir. Eləcə də böyük aşığın əlyazmaları bir kisə una dəyişdirilib Orta Asiyaya aparılmış, bir şair tərəfindən mənimsənilmişdir. 2004-cü ildə Molla Cumanın 150 illiyi tamam olur. Bu vaxtadək respublika miqyasında yubiley tədbirləri keçirilməklə yanaşı, əsərlərini "plagiat" aşıq və şairlərdən alıb özünə qaytarmaq lazımdır.

Əgər Şəki-Zaqatala bölgəsində məşhur "Ala gözlər" mahnısının



müəllifi Vərxiyanlı Aşıq Məhəmməd (doğrudur, onun da belinə muğal-ləzgi damğası vururlar, halbuki SMOMPK-dakı bir məqalədə açıq-aydın yazılır ki, inqiloy və muğal toylarında o, bədahətən qoşduğu tatar mahnılarını oxuyur) kimi sənətkarlar olmasaydı, Mola Cuma tək parlaq ulduz şölələnə bilməzdi. Bəzən belə bir məsuliyyətsiz hökmlər səslənir ki, Şəkidə epik ənənə inkişaf etmədiyindən yazılı ədəbiyyatda nəsr yaradıcılığı sahəsində də az iş görülmüşdür. Unudulmamalıdır ki, Azərbaycan folklorşünaslığında Salman Mümtaz kimi toplayıcı şəkilidir, onun fəaliyyətində daha çox aşıq poeziyasına yer ayrılmışdır. Bura R.Əfəndiyevin gördüyü işləri də əlavə etmək olar. Və Salman Mümtazın da arxivi məlum səbəblərə görə sıradan çıxarılıb. Sonradan toplayıcı adıyla meydana atılan adamların çoxu onun ünvanına daş atmağa baş girləmiş, həm də böyük zəhmət hesabına əldə etdiklərini öz materialları saymış, bir sıra şəkili söz-saz sənətkarının əsərlərini isə başqa aşıqların (öz bölgəsinə aid) ünvanına yazaraq çap etdirmişdir. "Mənəvi terror" Şəkiyə qarşı indi də aparılır. Belə çıxışlar da var ki, dastan Qərbi Azərbaycanda geniş yayıldığı halda Şəkidə camaatı ancaq lətifə düşündürüb. Sual olunur: Miskin Abdaldan tutmuş Aşıq Ələsgərə qədər Göyçədə hansı aşığın xalq arasında yaşayan dastanları var? Doğrudur, Alı və Ələsgər dastan düzüb-qoşmağa təşəbbüs göstərmiş, lakin yaratdıqları aşıq rəvayətlərindən o yana getməmişdir. Bu gün on dastan düzəldib Miskin Abdalın, ya da Ələsgərin adına çıxsalar da, onlar xalqın repertuarında uzun əsrlər boyu yaşayaraq gələn dastanlar sırasına daxil edilə bilməz. On doqquzuncu yüz illiyin mətbuatını diqqətlə izlədikdə görürük ki, İrəvan quberniyası, Borçalı və Yelizavetpoldan istənilən qədər folklor toplanıb, lakin dastanlara az təsadüf edilib. "Koroğlu", "Əsli və Kərəm", "Alı xan və Pəri xanın", "Novruz", "Molla Qasım (Xəstə Qasım)", "Şah İsmayıl", "Abbas və Gülgəz" və "Aşıq Qərib" istisna edilməklə digər dastanlar (Miskin Abdala, Alıya aid edilən) nə kağıza köçürülmüş, nə də haqqında bəhs açılmışdır. Diqqət edəndə aydınlaşır ki, məhz toplanan dastanların bir qismi Şimal zonası aşıqlarının dilindən yazıya alınıb. Maraqlıdır ki, rus yazıçıları öz əsərlərində süjetindən istifadə etdikləri bir sıra Azərbaycan xalq dastanlarının da ("Hacı Abrek//Aybek", "Amalat bəy", "Molla Nur", "Aşıq Qərib") ilkin ünvanı Molla Cumanı yetişdirmiş Şəki-Dərbənd bölgəsidir. "Koroğlu"nun rusca nəşrlərinin informatorları da şimallıdır.

Nə yaxşı ki, Molla Cumanın və başqa Şəki aşıqlarının on beşədək dastanı XX əsrin 20-ci illərində toplayıcı Hüseyn İsgəndər tərəfindən yazıya alınmışdır. Bu əsərlər əsl dastan strukturunu özündə əks etdirir. Hüseyn Cavidin oğlu gənc Ərtoğrul 80 il əvvəl onların çapına rəy də verib. Lakin Molla Cumanın Milli EA-nın Arxitektura və İncəsənət İnstitunun arxivində saxlanan dastanlardan ikisinin mətni hansı yollasa, bir tədqiqatçının əlinə keçib. O, ağsaqqal bir alimlə birlikdə həmin dastanları öz bildiyi şəkildə "müasirləşdirib", "yazılı" dastan ənənəsinə salaraq çap etdirib. Özü də Şəki materialları kimi deyil. Belələrinə nə ad verəsən? Onlar uydurmuşlar ki, guya 80-cı illərdə Balakəndə Aşıq Məhəmməd adlı birisinin dilindən qələmə alıblar. Əgər qanunlara hörmət qoyulan ölkədə yaşasaydıq, Molla Cumanın şagirdi şəkili Aşıq Əhməd Qafarovun haqqını tapdalayan "toplayıcılar" məhkəmə qarşısında cavab verməli olardılar. Bəziləri elə zənn edirlər ki, xalq yaradıcılığı ucu-bucağı görünməyən cıdır meydanıdır. Orada kor atı minib istədikləri istiqamətə çapa bilərlər. Lakin bir atalar sözündə deyildiyi kimi: "Zər qədrini zərgər bilər". Nədənsə, bizdə əksinədir, "Zəyin qədrini zərgər bilir". Çünki bir çox toplularda "xalq zərgərləri"nin "zər"i deyil, dağ çaylarının qırağından təcrübəsiz uşaqların ovuclayıb gətirdikləri çınqıllarla rastlaşırıq. Lakin elin gözü tərəzi, sözu çəki daşlarıdır. Tərəzinin boş gözünə nə qədər zinət qoyulsa da, el sözüylə tuş



gəlməz, çəki oxu tarazlaşmaz. Ona görə ki:

***Aşıq dağlarda gəzər,***
***Qafiyəsi el bəzər.***
***Allah qoruyan kəsə***
***Heç vaxt dəyməz bəd nəzər.***

**GÖZ VƏ AĞIZ YEYƏNLƏR DAĞLARIN O ÜZÜNDƏ QALDI...**

Nədənsə, bir-iki aftoritet tarixçinin ikibaşlı fikirlərinə də elmi idarələr və ictimaiyyət göz yumur: onlar iddia edirlər ki, guya Azərbaycanda türklüyün kökü IX yüzildən qədimə getmir. Qulaqardına vurmaqla yanaşı tarixin ən qaranlıq problemlərini adi jurnalistin, həvəskarın, ya da həkimin gözünün nuru ilə işıqlandırıb dünyanı mat qoymağa çalışırıq. Belə ki, şəkililərin işlətdikləri bəzi kəlmələri hannibalizm, barbarlıq dövrü ilə əlaqələndirirlər. Tamamilə yanlış qənaətlər olsa da, danılmaz faktdır ki, folklorun həm epik, həm də lirik ənənəsində barbarlığın izləri özünü qoruyub saxlayır. Lakin göstərilən deyimlərdə hannibalizmə rast gəlmirik. Dil tarixçilərimiz yaxşı bilirlər: "yiyim" sözü (demək olar ki, əksər sözlərimiz) bir neçə mərhələdən keçib, iki-üç dəfə məna dəyişikliyinə uğrayaraq bu günkü səviyyəyə çatmışdır. Heç kim təsdiqləyə bilməz ki, hannibalizmdə, eləcə də ondan sonrakı mərhələlərdə "ye" sözü indi başa düşdüyümüz mənada işlənib, yoxsa başqa anlamda. "Ye, yemək, yaxud yeməklər" ifadələrində odun kəşfindən sonrakı çağların, bişirilmənin, xörəkləşmənin möhürü var. Barbarlıqda doğranmaq, kəsilmək, parçalanmaq kimi ifadələr işlənib. "Dədə Qorqud"dakı "oxuma sancılım", "qılıncımla doğranım", "yerə girim" kəlmələrinin məna tutumunda olduğu kimi. "Gözuu yiyim", "ağzoo yiyim" (yada salaq ki, başqa bölgələrdə də işlənir, məsələn, Bakının Nardaran qəsəbəsindən toplanan materiallarda "gözüvü yeyim", "başıvı yeyəsən" ifadələrinə rast gəlirik) əslində müsbət anlamdadır, əzizləmə, oxşama kimi səslənir. Hannibalizmlə əzizləmə, oxşama bir araya sığmır. Sayaçı nəğmələrində də belə kəlmələrlə rastlaşırıq:

***"Nənəm, a şişək (şişlik) qoyun..."***

Sual doğur: söhbət kababLıq qoyundan - şişlikdən gedirsə, nə səbəbə "nənəm"ə müraciət olunur?

***Ramazan QAFARLI***

***(Ardı var)***



# Gərəksən bizə

**Məktəb illəri idi. Bütün şagirdlər kimi balaca Mehriban da ürəyində min bir arzunun bələdçiliyi ilə dərsə gəlir, arzular onu qanadlarına alıb uzaqlara, hələlik heç özünə də məlum olmayan məkana aparır,.. sonra... müəllimi-nin: "Mehriban, sən cavab ver, görüm..." - deməsi ilə özünə qayıdır. Xəyallar qənim kəsilmişdi bu balaca qızın bütün daxili aləminə, onun fikrini dərslərdən yayındırır, hətta gündəliyindəki qiymətlərinin aşağı düşməsinə səbəb olurdu. Əlaçılar *Mehribandan* uzaqlaşırdılar. O, isə fərqinə belə varmırdı. Əvəzində özünə daha sadiq dostlar tapırdı və daha çox oğlanlarla ünsiyyət saxlayırdı. Yoldaşlıqda sadiq olan Mehriban xəyallarına da sadiq qalır. Sənət eşqi, sənət həvəsi onu özünə əsir edir. Bu həvəslə də aktrisa olmağı qərara alır. Beləliklə, bir vaxtlar dərs lərdə xəyallarında "gəzdiyi" məkanlarda sonralar filimlərə çəkilir, sirli şəhərləri qarış-qarış gəzir, sənəti, istedadı ilə özünü bir aktrisa kimi təsdiqlədir, respublikanın əməkdar artisti kimi fəxri ada layiq görülür. Bü-tün bunları Mehriban xanım belə xatırlayır...-**





-"Artıq aktrisa olmağı qəti qərara almışdım. Özü də Moskvada təhsil almaq istəyirdim. Məqsədim Ümumittifaq Kinoşünaslıq İnstitutuna daxil olmaq idi. Kinostudiyada Həmidə xanım Ömərova bizi imtahanlara hazırlayırdı. Cəmi 4 nəfər idik, 2 qız, 2 oğlan. Moskvadan Batalov gəlib bizə baxmalıydı. Odur ki, gərgin məşqlər edir, çox ciddi çalışırdıq. Həmin ərəfədə kinostudiyada "Sarıköynək və Valehin nağılı" adlı filmin çəkilişlərinə başlanmalıydı. Bu filmi rejissor Ənvər Əbluc çəkməli idi. Sarıköynək rolunda sınaq çəkilişlərində iştirak etmək mənə təklif olunanda hədsiz sevindim. İlk əvvəl fotoproba deyilən sınaqdan keçdim. Sonra kinoproba çəkildim. Sınaq çəkilişi Moskvaya göndərildi. Nə isə, bu arada Batalov deyil, Matveyev Bakıya gəldi. İmtahan başlandı. Növbə mənə çatdı. Təmsil, şer dedim, etüd göstərdim, amma... "yox" - dedilər.



Ağlaya-ağlaya kinostudiyadan çıxıb evə gedirdim. Bir qədər getmişdim ki, birdən qulağıma səs gəldi, "Akina, Akina". Arxaya çönüb baxanda, gördüm, Əhməd dayıdır, kinostudiyanın gözətçisi, o da həmişə məni, o vaxt Filippinin prezidentinin şərəfinə Akina çağırardı, deyirdi, guya mən eynən o prezidentin xanım Akinaya bənzəyirəm. Nə isə, qayıdıb gəldim. Əhməd dayı dedi ki, Ənvər müəllim səni çağırır. Həqiqətən həyətə keçib gördüm rejissor Ənvər Əbluc, yanında da bir-iki nəfər dayanıblar. Onlara yaxınlaşdım. Ənvər müəllim əlini mənə uzadıb dedi: "Hə, Mehriban təbrik edirəm, sən Sarıköynək roluna təsdiq olundun". O vaxt keçirdiyim sevinc hisslərini indi təsvir etmək, əlbətdə ki, mümkün deyil. Çəkilişlər başlandı. Həmin film Qəbələdə çəkildi. İlk işim, deyilənlərə görə, olduqca uğurlu alınmışdı. Buna nə qədər sevinirdimsə, Moskvada təhsil ala bilməməyimə bir o qədər təəssüflənirdim. 1986-cı ildə Şəfiqə xanım Məmmədovanın təkidi ilə sənədlərimi M.Əliyev adına İncəsənət İnstitutuna, aktyorluq fakültəsinə təqdim etdim. İmtahanlardan uğurla keçib, instituta daxil oldum. İnstitut illəri istər tədris, istərsə də yaradıcılıq baxımından olduqca maraqlı idi. Burada bir sıra klassik və müasir əsərlər tamaşaya hazırladıq. Kursumuzun rəhbəri görkəmli aktyor, respublikanın xalq artisti Məlik Dadaşov idi. "Xoşbəxtlər" tamaşası bizim kursun diplom işi oldu.

Artıq institutu bitirmişdim. Bir dəfə yenə kinostudiyada Əhməd dayı qayıtdı ki, "Akina, səni Şahmar Ələkbərov axtarır". Şahmar müəllimin yanına gəldim. O, "Sahilsiz gecə" filmindəki Zibeydə roluna sınaq çəkilişlərində iştirak etməyi mənə təklif etdi. Həmin filmin kinoproba hissəsi çəkilib Moskvaya göndərildi, mənim Zibeydə rolunda çəkilməyim təsdiq olundu və bu rola çəkildim. 1990-cı ildə Şahmar müəllim "Qəzəlxan" filmini çəkirdi. Həmin filmdə mən epizodik rolda çəkildim. Bundan başqa "Kənar adamlar", "Sifarişçi" filimlərinə də çəkilmişəm. 1998-cı ildən Azdramada çalışıram. Bu vaxta qədər bir sıra tamaşalarda - "Qadın faciəsi"ndə birinci qadın, "Şah Edip"də İsmena, "Burla Xatun"da Şiranə, "Kəllə"də Dalbanezanın qızı, "Hələ sevirəm dedəmişlər"də yunan qızı Sonya, "Varlı qadın"da jurnalis qadın Şadxəbər, "Ədirnə fəthi"ndə Şəmsa, "Afət"də Altunsaç, "Xurşudbanu Natavan"da Təhminə və s. müxtəlif xarakterli rolları ifa etmişəm. Hazırda isə teatrımızda Hacı Zeynalabdin Tağıyevin həyatından bəhs edən "Mesenat" tamaşasında Tağıyevin qızı Sara rolunu məqş edirəm.

***Bayaq kino fəaliyyətimizdən bəhs edərkən Türkiyədə çəkildiyiniz seriallar barədə heç nə dedədiniz.***

-Düz buyurur-sunuz, Türkiyədə 54 seriyalı "Bizim məhəllə" filmində jurnalist Səda roluna çəkildim. Onun ardınca isə "Çarlinin mələkləri" adlı filmə dəvət aldım. İnanın, orada nə qədər gərgin iş rejimi ilə işləsəm də, doğmalarım, əzizlərim, bir sözlə, Azərbaycanım üçün o qədər darıxırdım ki... Çox davam gətirə bilmədim Vətənsiz. Beləcə, doğma Vətənə qayıtdım.



***Bəli, Mehriban xanım Vətənə qayıdır. Hələ məktəbli ikən xəyallarının dolaşdığı müxtəlif şəhərlər nə gözəlliyi, nə dəbdəbələri ilə ovundura bilmir Mehribanın vətən həsrəti ilə döyünən ürəyini. Çəkilişlərini başa çatıran kimi, qürbətin ona vəd etdiyi bütün naz-nemətlərdən imtina edib vətənə dönür. Bu dönüş Mehriban xanımın yaradıcılığında, sənət fəaliyyətində sanki yeni səhifələr açır. Onun istedadı artıq yeni ampluada, bədii qiraət janrında özünü təsdiq edir. O, şair Cabir Novruzun "Ömründən poz ömrümə yaz", "Səni unutmaqdan ötrü", "Gərəksən mənə", Bəxtiyar Vahabzadənin "Unut" kimi olduqca mürəkkəb, fəlsəfi mənalarla zəngin olan poeziya nümunələrini klip şəklində tçəkdirir. Bu kliplərdə cəmi 3-4 dəqiqəlik zaman çərçivəsində Mehriban xanım böyük həyat hadisəsini olduqca təbii, inandırıcı şəkildə tamaşaçılara təqdim edir. Bundan başqa televiziyada nümayiş olunan İlyas Əfəndiyevin "Məhv olmuş gündəliklər" tamaşasındakı Anjel rolu ilə Mehriban geniş tamaşaçı auditoriyasının rəğbətini qazanır. Müvəffəqiyyətli rejissor yozumu ilə yanaşı təbii aktyor oyunu, tamaşanın sonuna qədər bir-birini əvəz edən həyəcanlı səhnələr, nəhayət, haqqın, ədalətin təntənəsi, qələbəsi hələ uzun müddət bizləri düşünməyə sövq edir. Gəlin, heç kimin haqqını tapdamayaq, zəif məxluq deyə qadının hüququnu əlindən almayaq və yalanların ayaq tutub yerimədiyinə inanaq, inandıraq...***

***Mehriban xanım da öz tərzi, öz sənət dəst xətti ilə inandırır bizləri, "Vətən uğrunda" çağırışı ilə hamını vətənə, vətənpərvərliyə səsləyir. Bu səs bir aktrisanın deyil, minlərin, milyonların çağırışıdır. O, artıq neçə müddətdir ki, özünün müəllif verilişləri ilə efirdə tamaşaçılarının görüşünə gəlir. Doğma Azərbaycanı diyar-diyar gəzib "Hanki səmtə" proqramı ilə ən ucqar yurd yerlərimizdən süjetlər çəkib onu bizlərə təqdim edir. Daim söz, sənət poeziya vurğunu olan Mehriban xanım ənənəsinə sadiq qalaraq "Könlümü şerə verdim" adlı verlişində dəyərli poeziya nümunələri ilə tamaşaçıları sevindirir. Nazırda o, "Nəfəsim" adlı müəllif proqramı ilə tamaşaçıların görüşünə gəlir. Bu gün istər teatrda, istərsə də efirdə olduqca gərgin iş rejimi ilə çalışan Mehriban xanım həm də qayğıkeş anadır. Ailə, ev işlərinə neçə vaxt çatdırdığı barədə soruşduqda belə cavab verdi:***

-İstər sənətdə, istərsə də ailədə üzərimə düşən məsuliyyəti çalışıram layiqincə yerinə yetirim. Əlbətdə, hərdən yoruluram. Bu vaxt qızım Aysel köməyimə çatır. Onun 15 yaşı var. Artıq yuxarı sinif şagirdidir. Dərslərinə ciddi hazırlaşmalıdır. Ona görə də çox vaxt öz işimi özüm görməyə çalışıram. Bacı, qardaşlarıma, ata, anama bacardığım qədər köməklik göstərməyə çalışıram. Çalışıram ki, bir vaxt onların mənim üzərimdə çəkdikləri əziyyətin müqabilində nə isə edə bilim. Əgər, buna nail oluramsa, deməli, xoşbəxtəm".

***Mehriban xanım doğmalarından danışarkən bir məsələni də xüsusi vurxuladı.***

-Zeynəb xanım bizim ailənin baş tacıdır, onun istər sənət, istərsə də həyat yolu hamımıza bir məktəb olub və olacaqdır.

***Mən də öz növbəmdə SSRİ xalq artisti, millət vəkili Zeynəb xanım Xanlarovanı təkcə bir ailənin, bir nəslin deyil, bütün Azərbaycanın fəxri, sevimlisi olduğunu bir daha qeyd etməyi özümə borc bildim.***

*Xanım Novruz qızı*

## Foto-reportaj











# Dünyanın ən kiçik dövləti futbol meydançası boydadır





Adətən, ən kiçik dövlətləri "cırtdan ölkələr (və ya "dövlətlər")" adlandırırlar. Onların bəziləri şəhər və onun ətrafından, bəziləri tək bir şəhərdən ibarətdir. Amma dünyada yeganə dövlət var ki, onu "həyət ölkə" adlandırmaq olar: o da Vatikandır. BMT-də müstəqil ölkə statusuna malik papa dövləti Romanın qərbindəki Monte-Vatikano yüksəkliyindəki 440 kvadratmetrlik ərazidə yerləşir. Ora, teokratik mütləq monorxiyadır. Monarx isə kardinalların ömürlük seçdiyi papadır. Dövlətin daimi qeydiyyatında 400 nəfər var: onlar kardinallardan, yepiskoplardan və muzey xadimlərindən ibarətdir. Ancaq müvəqqəti qeydə alınanlar 600 nəfərdir (onlar papanın göstərişi ilə qeydə alınır və çıxarılırlar). Bu səbəbdən də bu dövlətin əhalisi 1000 nəfər sayılır. Ancaq hər gün gələn katolik din xadimlərinin, adi xristian vətəndaşların, turistlərin hesabına burada minlərlə adam olur.

Ərazisinin kiçikliyinə və əhalisinin azlığına görə "dünya rekordçusu" Vatikan ümumdünya nüfuzuna və adambaşına düşən var-dövlətə görə də rekordçudur. Ona görə ki, yer üzərində yaşayan 1,5 milyarddan artıq xristianların 1,1 milyardlıq katolikalarının mərkəzidir: papa isə onların dini rəhbəridir. Bundan başqa o minlərlə katolik din xadiminə, 1 milyard artıq monastr və yarı monastr sakininə rəhbərlik edir. Müxtəlif katolik təşkilatların, xeyriyyəçilik cəmiyyətlərin, mətbuat, radio və televiziya vasitəsi ilə papa dövləti külli miqdarda vəsaitə malik olur və lazım gəldikdə katolik təəssüblü ölkələrə siyasi təsirlər göstərir. Rəsmi "Osservatore Romano"-dan başqa 50-dildə çap olunan 1500 qəzet və ən güclü radiostansiyalardan birinə malik Vatikanın təkcə ABŞ banklarında 40 milyarddan artıq kapitalı var.

1929-cu ildə papa ilə İtaliya hökumətin razılaşdığı beynəlxalq Lateran müqaviləsi ilə yaradılmış bu dövlətdə qanunverici və məhkəmə hakimiyyəti papaya məxsusdur. Dövlətin ümumdünyəvi icra hakimiyyətini dövlət katibi (baş nazirin alternativi) yerinə yetirir. Ancaq vatikanın yerləşdiyi ərazidə bu funksiya qubernatorun səlahiyyətinə daxildir: onların hər ikisini papa müəyyən edir. O, dövlətin rəhbəri olsa da, praktik olaraq dini, siyasi və iqtisadi idarəçilik Roma kuriyası tərəfindən idarə olunur. Onun tərkibinə dövlət işləri üzrə katiblik, 10 konqreqasiya (dini təşkilat) və s. xidmətlər daxildir. Nəzərə çatdırırıq ki, bu ölkənin başçısını müxtəlif millətlərdən olan kardinallar öz aralarındakı nümayəndələrdən səsvermə ilə ömürlük seçirlər. Onu 1978-ci ilin 16 oktyabrında bu posta layiq görüblər. 1964-cü ildən indiyədək seçilən 264 Roma papası arasında yeganə polyak olan II İon Pavel, 32 il hakimiyyət sürən IX Piydən (1846-1878) sonra ən çox taxtda oturan papadır. Bəli, dünyada böyük nüfuza və kapitala malik müqəddəs Pavel sarayından və onun həyətindən ibarət olan Vatikan adlı bir dövlətin ərazisi futbol stadionu boydadır.

*A.B.*

# HOLLİVUDUN ƏN MÜKƏMMƏL BƏDƏNLİ XANIMLARI?



***Belə hesab edirlər ki, biritaniyalılar müxtəlif növ reytinq və müsabiqələr keçirməyə daha böyük həvəs göstərirlər. Təsadüfi deyil ki, bu günlərdə məşhur "Eve" jurnalı yeni müsabiqə elan edib. Dünyanın "Ən mükəmməl bədən"ini müəyyənləşdirmək qadın oxucular üçün o qədər də asan olmayıb. Təbiidir ki, gözəlliyin bütün əlamətlərini ancaq məşhur aktrisalar arasından tapmaq mümkündür. İngilis dilli avropalı və amerikalılar üçün "gözəlliyin yeganə mədəni" var - Hollivud.*** Bu dəfə də ekspertlər məhşur kinokompaniyanın ulduzları arasında seçim apardılar və etiraf etdilər ki, **"ilin Afroditası" 35 yaşlı aktrisa Ketrin Zeta-Consdur**. Təəccüblüsü odur ki, bədən quruluşu ilə mütəxəssisləri heyrətləndirən bu xanımın adı, nədənsə, məşhur "Maxim" kişi jurnalının "Hollivudun 100 ən füsunkar və uğurlu gözəli" siyahısına düşməyib.

Ola bilsin ki, bu ilki "Afrodita" seçimində qadınlar fəallıq göstəriblər. Daha doğrusu, britaniyanın evdar xanımları həmrəylik göstərib Ketrini ona görə hamılıqla müdafiə ediblər ki, onun timsalında analıq sevincini duyan qadının öz gözəllik və seksuallığını qoruduğunu dünyaya nümayiş etdirsinlər. Qeyd edək ki, duqlaslar ailəsində iki körpə uşaq var, lakin onların anaları indiyədək bir dəfə də olsun "Oskar" mükafatına layiq görülməyib. Bu səbəbdən də Ketrin analıq vəzifəsi ilə yanaşı aktrisalığında da böyük uğur əldə etmək üçün daim bədəninin keşiyində durmalıdır. Britaniyalıların nəzərində Ketrin ona görə sevimli kino ulduzudur ki, o, ağıllı, gözəl, əxlaqlı, ərinə sədaqətli arvad və övladlarını dəlicəsinə sevən anadır. Axı Ketrin "mənfur Britni" deyil ki, nigahı qadının piyləşməsi və yuyunub-daranmaqdan uzaq düşməsinə səbəb olan əsas vasitə saysın.



Reytinqdə ikinci yeri Ancelina Coli ("Maxim"nin göstəricilərinə görə isə o, yeddincidir) tutub. Üçüncü yerin sahibi "Ceyms Bondun sevgilisi" və pişik-qadın Xelli Berridir ("Maxim"də 41-cidir). El Makferson, Keyt Uinslet və Cennifer Lopes kimi tanınmış kino və estrada ulduzları da ilk onluqda yer alıblar.

***Britaniyanınm başqa bir jurnalı (Touch) da analoji tədqiqat aparıb, fərq ondadır ki, redaksiya qadının bütün bədənini deyil, təkcə bir orqanının - qıçlarının mükəmməliyini əsas şərt kimi götürüb.*** Nəticədə "Ən gözəl ayaqlı qadın" **Cennifer Lopes** seçilib. Və bu uğuruna münasibətini soruşanda, Cey Lo bildirib ki, o, bir daha bulvar mətbuatının informasiya mənbəyinə çevrilmək istəmir. "Mən həqiqətən çox ciddiləşmişəm, özüm də hiss edirəm ki, indi daha yaxşıyam, əziz və etibarlıyam". Britaniyalılar onun etirazına məhəl qoymadan fəal səs veriblər və "əziz Cenni"ni bu dəfə gözəl ayaqlarına görə fərqləndiriblər.

*R.Q.*




**İyun ayının 5-də redaktorumuz**

## AYSELİN AD GÜNÜDÜR

Kollektivimiz adından Ayseli təbrik edir, ona xoşbəxtlik, can sağlığı və yaradıcılıq uğurları arzulayırıq.
Əziz AYSEL, acı və kədər ulduzlar qədər uzaq, sevinc isə göz bəbəyin qədər sənə yaxın olsun. Ümidlərin gerçək, gerçəklərin xoşbəxtlik, xoşbəxtliyin isə sonsuz olsun. Qəlbin hansı arzularla çırpınırsa, qoy bu şirin həyat sənə onu bəxş etsin!

# Tarixin ən möhtəşəm abidəsi

Çox olub dünyada məşhur abidələr. Ancaq onların arasında "liderlik" edən sözsüz ki, **Böyük Çin səddidir.** B. e. ə. IV əsrin sonunda bünövrəsi başlanan bu daş hasarın tikintisi bir neçə imperator tərəfindən uzadılsa da, sonadək başa çatdırılmayıb. Məqsəd Çinin şimal sərhədlərini köçəri hücumlarından qorumaq olub. 6 min 500 km.-lik səddin hündürlüyü 6-10, qalınlığı isə 5-8 metr idi. Bununla belə sədd etimadı doğrultmadı: əsrlərlə hökmranlıq edən xan sülaləsi köçəri tayfaların həmləsindən darmadağın oldu. Səbəbi də çox sadə idi: Hökmdarlardan narazı xalq, səddi qorumaq istəmədi. Sadəcə olaraq "Xanlar" adi bir məntiqi bilməyiblər ki, hasar nə qədər möhkəm olsa da, onun mühafizəçiləri zəif olsa qala alınmalıdır. Buna görə də ilk növbədə qəsri içəridən möhkəmlətmək vacibdir. Bu amil nəzərə alınmadığından tonlarla qızıl sərf edilsə də, on milyonlarla ton daş yonulub hörülsə də əhəmiyyətsiz bir tikinti kimi yarımçıq qaldı. Heç bir quruğa bu qədər xərc, vaxt işçi qüvvəsi, tikinti materialı sərf edilməyib tarixlər boyu. Təsadüfən deyil ki, o, kosmosdan görünən yeganə tarixi abidədir!

*A.B.*



# GÖL BİR GECƏDƏ MÜƏMMALI ŞƏKİLDƏ YOXA ÇIXIB

***Nijeqorod vilayətinin Bolotnikovo kəndində bir gecədə göl yoxa çıxıb.*** Sözümüzü zarafat saymayın, ciddi deyirik. Ötən həftənin cümə günü gün doğanda yerli sakinlər görürlər ki, milyon kub metrlik su hövzəsinin yerində bomboş nəhəng "qazan" əmələ gəlib. Ora vurnuxurlar, bura vurnuxurlar, ətrafda əl çatan yerlərə baş vururlar, gölü "gördüm" - deyən tapılmır. Eləcə də yaxın ərazilərdə başqa su anbarı əmələ gəlmədiyini söyləyirlər. Allahın buranın adamlarına qəzəbi tutub yəqin. Yoxsa, bu böyüklükdə gölü bir göz qırpımında ərşə çəkməzdi.

NTV telekompaniyasının xəbərlər xidməti məlumat yayıb ki, kənddən gölə otuz metrlik məsafədir. Meşənin göbəyindəki gölün birdən-birə yoxa çıxması adamda elə təsir oyadır ki, sanki nəhəng vannanın tıxacını kimsə bilmədən dartıb yerindən çıxardıb. Kəndin əhalisi Fövqəladə Hallar Nazirliyinin xilasedicilərinə müraciət ediblər. Mütəxəssislər gəlib gölün dibini araşdırıblar, lakin "zərər çəkmişdən" əsər-əlamət tapmayıblar. Göl iz buraxılmadan "oğurlanmışdı". Xoşbəxtlikdən hadisə baş verən gecə təsadüfi də olsa, suyun üzərindəki qayıqlarda adam olmayıb. Sübhədək göldə sevişənlərin və sərxoşların bəxti yaman gətirib, bu dəfə yerli-dibli itib-batmaqdan canlarını qurtarıblar. Yerli yanğınsöndürənlərin rəisi Dimitri Zaytsev deyir ki, «qəribədir, suyun üzündə nə vardısa, hamısı, hətta yarğanlardakı iri ağaclar da yerin altına girib. Bu səbəbdən ehtimal edirik ki, burada adam qalsaydı, onun canını qurtarmaq üçün heç bir şansı olmazdı».

Əlbəttə, gölün itməsi ilk növbədə yerli əhalini təşvişə salıb. Deyirlər ki, səhərin gözü açılanda kədinin balıqçıları əllərində tilov sahilə gəliblər: "Baxırıq, göl yoxdu, - deyə kənd sakinlərindən biri təəccübünu gizlətməyib, - batyuşki, nələr baş verir, dünyanın axırımı çatıb?"

Bolotnikovo kəndinin ağsaqqalları bir yerə yığışıb elmi konsilium keçiriblər. Gölün itməsinin səbəbi müxtəlif şəkildə yozulub. Amma bütün variantlar həqiqətdən uzaq səslənib. Hətta bir ağzıgöyçək yerindən qalxaraq bəyan edib ki, "Bu, Amerika Birləşmiş



Ştatlarının işidir. Görün, kişilərin əlləri haralara çatır?!."

Qonşu Filinski kəndinin icra hakimiyyəti başçısının müavini Aleksandr ehtimal edir ki, gölün suyu yaxınlıqdakı yeraltı çaya yol açıb və üzü aşağı axıb yoxa çıxıb. "Yadınızdadırsa, ötən il gölün sahilində böyük uçqun əmələ gəlmişdi. Ola bilsin ki, suları saxlayan torpaq qatı zəiflədiyindən yarılıb, göl yerin dərinliyindəki boşluğa boşalıb. Ya da yeraltı çaylar vasitəsi ilə uzaq dənizlərə axıb". Elədirsə, bəs, mütəxəssislər nə səbəbə yeraltı boşluğun, ya da yeraltı çayın yolunu tapmayıblar?

Tarixə baş vuranda aydınlaşır ki, "itgin göl" qalın meşədə İvan Qroznının zamanında meydana gəlib. O çağlardan bu su hövzəsini qatı sirlər bürüyüb. Yerli sakinlərdən birinin sözlərinə görə, bir vaxtlar sahildə böyük kilsə tikilibmiş. Bir gecə qəflətən həmin Allah evi də tamamilə yerin altına köçüb.

Yerli kənd hakimiyyətinin məmurları da baş vermiş hadisə ilə bağlı mülahizələr irəli sürüblər. Onlar yada salıblar ki, 70 il əvvəl Bolotnikovoda bir neçə evi torpaq tamamilə udub.

Allah sakinləri sonrakı bəlalardan qorusun. ***R.Q.***

# İNSANLAR ÇOX HALLARDA ÖZ AD GÜNLƏRİNDƏ ÖLÜRLƏR

**Hər bir insanın həyatı bioloji silsilələrə tabedir. İllər ötdükcə yaşantılarımızda eyni mərəhələlər bəzən uğurla, bəzən də sönük şəkildə təkrarlanır. Araşdırıcıların qənaətinə görə, zaman aşırımları fiziki və psixoloji inkişafımıza ciddi təsir göstərir. Deməli, onlarla hesablaşmaq lazımdır. Və elmdə "fərdi il fenomeni" deyilən termin də var.**

Kemerovo Tibb Akademiyasının fizioloqları "fərdi il fenomeni"nin tədqiqinə hələ 80-ci illərin sonundan başlamışlar. İşin rəhbəri, professor Nina Aleksevna Barbaraş bildirir ki, "İndiyədək revmotizmdən əziyyət çəkib ürəklərində əməliyyat aparılan 136 şəxsin xəstəlik tarixinin təhlilini aparmışıq. Məlum olub ki, vəziyyətin xeyli pisləşməsi əməliyyatın nə zaman aparılmasından asılıdır. Belə ki, xəstələrin doğum gününə üç ay qalmış (qnoynıx oslojneniy) hallarının kritikləşməsi daha yüksək olur (36 faiz). Əksinə, anadan olandan üç ay sonrakı vaxtlarda çox nadir hallarda təhlükə yaşanıb. Eləcə də başqa müalicəyə ehtiyacı olanlarda da ad gününə üç ay qalmış təhlükəli məqamlar yaşandığı müşahidə olunub. Məsələn, işemiçeskoy xəstəliyinə tutulanların ürəyində aritmiya üzə çıxıb. Ardıcıl aparılan tədqiqatlar təsdiqləməyə əsas verir ki, fərdi ilin doğum gününə yaxın dördüncü üç ayı (10, 11 və 12-ci aylar) həyat üçün olduqca qorxuludur.

Kiyevli gerentologiya üzrə ETİ-nin əməkdaşı Aleksandr Vayserman Ukrayna paytaxtının son 10 il ərzindəki 12 min xəstənin xəstəlik tarixi ilə tanış olub. Aydınlaşıb ki, kişilərin 44, qadınların isə 36 faizi öz ad günündə dünyasını dəyişib. Həkimlər əmin ediblər ki, insanın ad günündə müəmmalı şəkildə də olsa, sağlamlığın mühüm göstəricisi gizlənib.

Tələbə fizioloqların 900 nəfər üzərində apardığı müşahidələr nəticəsində aşkarlanıb ki, bir sıra



parametrlərinə (iş qabiliyyəti, əsəbiliyə meylilik, davamlılıq, yaddaş, yuxu, əsəb gərginliyi) görə qadınlarda ən uğurlu mərhələ öz fərdi ilinin ad günündən sonrakı üç ayıdır, kişi və oğlanlarda isə bir qədər başqa şəkildədir - onlar 4, 5 və 6-cı aylar daha fəaldırlar. Sual doğur: nə səbəbə insan həyatının çıxış nöqtələri yaşantısının sonrakı çağlarında da ad günü ilə bağlanır? Eləcə də hansı səbəbdən fiziki və psixoloji mərhələlərin "işlək müddəti" cinslərdə dəyişkəndir? Hələ 1986-cı ildə isveç alimləri H.Laqerkrans və T.Slotkin yazırdılar ki, körpə daxil olacağı gözlənilməz dünyanın gərginliklərindən ana bətnində ikən qorxuya düşür, sanki kənar kompleks qıcıqlanmaları "yaddaşına həkk edir", təzyiq, temperatur, gecə və gündüz, isti və soyuqluq və s. Oğlanlarda doğumdan sonra qorxunun gərginliyi qızlarla müqayisədə daha da artır. Bu səbəbdən də onların "şəxsi il"lərində fizioloji və psixoloji mərhələlər bir-birindən fərqlənir. Alimlərin dediyinə görə, bütün bunlar hələlik ehtimaldır, fərziyədir, ancaq böyük tapıntıya doğru atılmış ən iri addımlardan biridir. Xatırladaq ki, XX yüzillikdə Avropanın tibb üzrə görkəmli alimlərinin gəldikləri qənaətləri dahi Azərbaycan şairi Füzuli XVI əsrdə ana dilində yazdığı məşhur "Leyli və Məcnun" poemasında Qeysin doğulması hadisəsində irəli sürmüşdü. O, yazırdı: uşaq dünyaya göz açanda ona görə ağlayır ki, zamanın müsi-bətlərini, dünyanın sərt üzünü görəcək…

Həkimlər "şəxsi il" fenomenini araşdırarkən psixoloji tipinə görə fərqlənən insanlarda da eyni halı müşahidə ediblər.

**Deyilənlərdən o nəticə çıxarılmasın ki, ad gününə üç ay qalmış bütün işlərinizdən əl çəkib kəlmeyi-şəhadətlərinizi oxumalısınız. Əksinə, həyata daha fəal qoşulmalı, şənlikdən, işgüzarlıqdan qalmamalı, özünüzdə güc tapıb bütün psixoloji və fiziki maneələri aradan qaldırmalısınız. Ad gününü təntənə ilə qeyd etməyi isə unutmayın. Çünki siz bir ilin də çətinliyini arxada qoymağı bacarmısınız. Eləcə də müəmmalı faktlar hər il hamıda təkrarlanmır. Və bəzən əks hallar da müşahidə olunur. Yəni insanlar fərdi illərinin 10, 11 və 12-ci aylarında enerjilərinin artmasını müşahidə edirlər. Ona görə də öz sağlamlığınıza bir qədər savadlı və qayğıkeşliklə yanaşın. Daha doğrusu, bədən üzvlərinin "dediklərinə" qulaq asın, yəni onların həyat gücünü zəiflədən əməllərdən uzaq qaçın.** ***R.Q.***

# ÖPÜŞMƏK ZİYANLIDIR



İsveçrəli alimlər **fransız öpüşü** problemindən bərk narahatlıq keçirib və hər yerdə öpüş əleyhinə plakatlar asılmasını təklif ediblər. Çünki araşdırmalar təsdiqləyib ki, **ehtiraslı öpüş zamanı insanlar 40 min bakteriyanı bir-birinə ötürürlər.** Eyni zamanda sevgililər intim həyatın öpüşlərlə keçən çağlarında **0,7 qr. zülal, 0,45 qr. piy** və **0,19 qr. digər üzvi maddələri** biri digərinə verib alır. Bu məlumat kariyeslə (sümük və diş toxumalarının xronik surətdə çürüyüb dağılması) mübarizəyə qarşı çağırış kimi səslənib.

Mütəxəssislər əmindirlər ki, **bu qədər köhnəlmiş rəqəmlərlə tanış olan insanlar öpüşəndən sonra mütləq öz gigiyenaları üçün narahatlıq keçirəcək, ehtiraslı öpüşlərdən tamam üzülüşməsə də, ən azı sonra ağızlarını təmiz su ilə yaxalayacaqlar. Tanımadıqları qadın və kişilərlə təsadüfi tanışlıq yarananda isə ehtiyatı əldən verməyəcəklər.** ***R.Q.***



# DALAŞANIN QULAĞINA BAX



Oqayo universitetinin alimləri (Ohio State University) maraqlı kəşf haqqında məlumat yayıblar. Demə, insanlarda dava-dalaşa meyl güclüdür, lakin bu hal onların bədən üzvləri ilə simmetriya təşkil etmir. Amerika tədqiqatçıları müəyyənləşdiriblər ki, forma və ölçüsünə görə sağ və sol qulaq, əllər və ayaqlar bir-birindən nə qədər fərqlənirsə, onların daşıyıcıları bir o qədər özündən çıxan və dalaşqan olurlar. Onlar maraqlı eksperiment aparıblar. 100 tələbəyə deyiblər ki, onların qabiliyyət və əlaqə yaratmaq bacarığını üzə çıxarmaq istəyirlər. Bunun üçün müəyyən telefon nömrələrini yığıb xəttin o başındakı naməlum şəxslərdən xeyyriyyə işləri üçün pul verməleri xahiş edilməlidir. Əslində, telefon sahibləri əvvəldən seçilib təlimatalandırılmış insanlar idilər. Əvvəllər tələbələrlə mehribancasına danışan və yardımlarını əsirgəməyən var-dövlət sahiblərinin birdən-birə üzüdönüklüyü tələbələri tez özündən çıxardır, onlarda qəribə hallar yaranır. Sınıqdan çıxarılanlar cavablardan qıcıqlanıb dəstəyi qəzəblə yerə çırpırlar.

Telefon dəstəyinə xüsusi cihaz quraşdırılıbmış, atılmaları qeydə alırmış. Eksperimentdən belə nəticə hasil olur ki, tələbələr gərgin söhbətdən bezib nə qədər qəzəblə dəstəyi atırdılarsa, bir o qədər onların barmaqları və qulaqlarının simmetrikliyi pozulurdu. Bioloqlar hesab edirlər ki, aqressivliyin zahirən yaratdığı əlamətlər daxili orqanlarda mənfi stimullar yaradır. Gənclərdəki əsəbilik faktları anaların alkoqol qəbul etmələri və siqaret çəkmələrindən törəyib. Bu hal yeni doğulan körpənin aqressivliyini gündən-günə artırır. Kritik hallarla rastlaşanda insanın özünü idarə edə bilməməsininin rüşeymləri ana bətnində qoyulur. ***R.Q.***


ALLA


FİLİ


Neft maqnatının arvadı MAŞA RASPUTİNA

**Son vaxtlar söz-söhbət gəzir ki, məşhur ər-arvadın çoxlu borcları əmələ gəldiyindən boşanmaq ideyasını ortaya atıblar. Bu, əslində gözə kül üfürmək kimi bir şeydi. Çünki onları bir-birinə təkcə sənət, intim hislər, yaxud eşq bağlamır, birlikdə elə işbirliyi qurublar ki, ayrılmaları ilə dəyəri 10 milyonu üstələyən sərvətin üstündən xətt çəkmiş olarlar. Sadəcə son çağlar bir-iki uğursuz layihələri ilə bankrot vəziyyətə düşmək təhlükəsi ilə üzləşdiklərindən mediyanın diqqətini yayındırmaq istəyirlər…**

# ALLA-FİLİPP QALMAQALI, YAXUD ULDUZLAR HANSI YOLLA PUL QAZANIR VƏ NƏYƏ XƏRCLƏYİRLƏR

Filinin prodyuserlik fəaliyyətinin iflasa uğradığı hamıya bəllidir. Onun "Çikaqo" myuzklı uğur qazana bilmədiyindən ər-arvad "YUKOS" kompaniyasından aldıqları külli miqdarda vəsaiti geri qaytarmaq məcburiyyətində qalıblar. Bu, bəzi hesablamalara görə 2 milyon dollardan artıq məbləğmidir. Puqaçova ancaq bir çıxış yolu tapdı: **Maşa Rasputinanı** təzədən səhnəyə qaytarmaq. Əslində, Maşanın işləri pis deyildi: neft maqnatı Viktor Zaxarova ərə getmiş, bir uşaq dünyaya gətirmişdi. Bircə ruhuna keçən musiqidən uzaqlaşmasına görə qüssələnirdi. Onun səhnə üçün darıxdığını anlayan Fili Rusiyanın keçmiş "seks-simvolu" ilə klip çəkdirdi. A.Zaxarov da onun borclarını ödəməyə söz verdi.

Görürsünüz ki, Kirkorov bacarıqsız adam deyil. O, bir gecə konsertində 30 min dolları rahatca qatlayıb cibinə qoyur. Eləcə də Alla hələ də bahalı oxuyanlar sırasında durur. Onun bir çıxışının qiyməti 50 min dollardır. Və son zamanlar bu məşhur cütlük dostlarının hesabına daha çox qazanc götürməyə alışıb. İş o yerə çatıb ki, Puqaçova xarici biznesmenə ərə gedən **Jasminin** konsertinin rejissorluğunu boynuna götürüb və deyilənlərə görə, 1 milyon dollar qazanıb. Fili də bu məsələdə arvadından geri qalmayıb, belarusiyalı kolbasa kralının arvadı **Aqurbaşı** (guya o, Filippin qohumudur) "Avropa görüntüləri" Beynəlxalq musiqi yarışında irəli çəkməyə söz verdiyi üçün bir o qədər pul əldə edib. Qəzetlər yazır ki, yunan **Sakis Ruvas** da Rusiyaya təsadüfi təşrif gətirməyib. Onun rus şou bazarına girməsinə yardım göstərdiyinə görə məşhur ingilis telefon kompaniyası Filiyə yaxşı pul - nə az, nə çox, 1 milyon 150 min avro təklif edib. Rusca təzəcə dil açdığı çağlarda **Avraam Russonu** da Alla qanadının altına almışdı, qızı Kristina ilə klip çəkdirməklə ona yaşıl işıq yandırmışdı.


Belarusiyalı kolbasa kralının arvadı AQURBAŞ

Sovetlər ittifaqının dağılmasından keçən illlər ərzində Puqaçovanın əsil kraliçaya çevrilməsində ərciyi Filinin əvəzsiz rolu var. Onu heç xanım Alla da unutmur.


Xarici biznesmenin arvadı JASMİN

Tverskoyda yerləşən şəxsi mənzili, Zemlyanoydakı (Fili ilə şərikli alıb) villasından başqa primadonnanın İstrdə şəhərkənarı malikanəsi də var. Deyilənə görə, bu binanın tikilməsinə Alla 1 milyon dollar xərc çəkib. Villanın plan və eskizini müğənni özü çəkib. Bir də söz gəzir ki, bəxtəvər qadının bir mənzili də Filippovski döngəsindəki elitar binada yerləşir. Bu, keçmiş əri ***Orbakayte Ruslan Baysarovun*** müğənniyə hədiyyəsidir. Bunlardan başqa Puqaçova-Kirkorov ailəsinin Moskvada, şəhər ətrafında və xaricdə külli miqdarda daşınılmaz əmlakı var. Məsələn, onlar Mayami-bricdə yüksək qüllələli tikililərdə *Valeri Leontyev, Nataşa Korolyova, İqor Nikolayev, İqor Krutoy* və b. məşhurların qonşuluğunda 10-dan çox mənzil alıblar. Hazırda *Kristina* uşaqları və dostu *Mixail Zemsovla* birlikdə həmin mənzillərdən birində dincəlir. Puqaçova özü isə Sürixdə istirahət etməyi xoşlayır. Oradakı mənzili on il əvvəl yerli xəstəxanada müalicə kursu keçərkən alıb. Yaxınlarda Alla İsraildə də özünə apartament axtarıb.

Kirkorov heç bir məsələdə arvadından geri qalmır. Ötən il *Lev Leşşenko* və *Vladimir Vinokuru* qabaqlayaraq Soçidə sahil binalarının birində bütün yeddinci mərtəbəni ələ keçirib. Lakin Alla təkcə mənzili almaq həvəskarı deyil. O həm də onların satışı ilə də məşğuldur. Yadınızdadırsa, ötən aylarda onun Taqankadakı malikanəsi kazanlı biznesmenə 2,5 milyona satılmışdı. Əvvəllər həmin binada ***Art-studiya "Alla"*** yerləşirdi. Malikanəni saxlamaq üçün çoxlu xərc tələb olunduğunu görər Alla xanım tez bir zamanda ağır yükdən canını qurtarıb.

**Ailənin var-dövləti içərisirndə "Ulduzlar qarajı" da fərqlənir.** Filinin məşhur ağ qar rəngli *"Hammer"i* Rusiyada ən bahalı avtomaşınlardan biridir. Kirkorov özü etiraf edib ki, maşınını 250 min dollara alıb. Deyilənlərə görə isə avtomobilin əsil qiyməti 17 min dollardan artıq deyil. Doğrudur, hazırda Fili krem rəngli "Mersedes"də, Alla isə ultrabənövşəyi "Bentli"də gəzir. Puqaçova-Kirkorov avtoparkında cangünənlər üçün də iki avtomobil saxlanılır: "Mersedes" və BMV.

***R.Q.***

# DÜNYADA BELƏ HADİSƏLƏR DƏ BAŞ VERİR

**Əfqanıstanda eşşəklər göyə uçmaq qərarına gəliblər. Davada onlara o qədər iki təkərli top daşıdıblar ki, qanmaz heyvanlar da yüklərinə baxıb çox götür-qoy ediblər. Görüblər ki, topun lüləsi göyə tuşlanan kimi od qopur, bir göz qırpımında mərmilər qanadsız-flansız havaya qalxır. Şəkildəki eşşək yəqin o günləri yada salıb on-on beş dolu "karobka"nın köməyi ilə nişangaha çevrilmək istəyir. Amma yazıq bilmir hansı səmtə atılacaq - keçmiş sovetlər məkanına, yoxsa...**

BELƏ HADİSƏLƏR ANCAQ ƏFQANISTANDA BAŞ VERƏ BİLƏR



BELƏ HADİSƏLƏR ANCAQ İSPANİYADADA BAŞ VERƏ BİLƏR



**İspanifyada kişilər qıçlarını öküzlərə qaşıdırlar. Öküz çaşıb buynuzu girən yerə başanı da soxmaq istəyir.**

**Afrikada su qəhətdi. Tapılanda da heç içməyə çatmır. Qarabalalar yuyunanda və çiməndə başqa vasitələrdən istifadə edirlər. Şəkildəki oğlan saçlarının çirkini təmizləmək üçün heyvanı saatalarla güdüb... Sonrasına ozünüz baxın.**


BELƏ HADİSƏLƏR ANCAQ AFRİKADADA BAŞ VERƏ BİLƏR


BELƏ HADİSƏLƏR ANCAQ KOREYADA BAŞ VERƏ BİLƏR

**Koreyada donuzu da balıq kimi torla tutur və hərəsi 60-75 kq.-lıq heyvanları arxalarına şələləyib asanlıqla hara desən apara bilirlər. *(R.Q.)***

*(Ardı gələn sayımızda)*

# SONSUZ EŞQİN BEŞ SİRRİ

*Həyatda düzgün insanla rastlaşmaq, bu insanla məhəbbət yaşamaq və bir ömür boyu həyatın acı və şirin anını onunla bölüşmək hər kəsə nəsib olmur. Məhəbbətinin sonsuza qədər davam etməsini kim istəməz ki? Amma hər şirin məhəbbətin bir başlanğıcı olduğu kimi, acı bir sonu da ola bilər. Sosiolq, pisixolq və bu kimi bir çox mütəxəssislər "sevənlərin ayrılma səbəbini" uzun müddət araşdırmağa çalışıblar. Onlar boşanmanın səbəblərini axtaranda çox vaxt xoşbəxt olan cütlərin üstünlük verdikləri bir vasitəyə əl atıblar. Bu cütlüklər öz münasibətlərini hər dəfə nəzərdən keçirib və ortaya çıxan bəzi xırda problemləri aydınlaşdırmağa çalışıblar. Belələrinin birlikdə yaşadığı ömür sonacan davam edir. Çünki hər iki tərəf bir-birlərinə hörmət bəslədiyindən anlayış göstərir.*

### 1. Eşqinizi təzələyin

Əlbəttə, onu sevdiyiniz üçün birlikdəsiniz. Əgər ona qarşı yaşatdığınız duyğular gerçəkdirsə, demək, ona qarşı yenidən həyəcan yaşaya və ona yenidən aşiq ola bilərsiniz. İllər keçsə də sevginizi hər dəfə dilə gətirməkdən çəkinməməlisiniz. Birbirinizin baxışı, gülüşü, zarafatları və davranışları hər dəfə sizi təəccübləndirməlidir.

Mütəxxəsislərin fikrincə, ciddi düşünsəniz, "Onu niyə sevirəm?" sualına cavab taparsınız. belə etmiş olsanız, məhəbbətinizin alovu heç vaxt sönməz.

### 2. Birlikdə keçirdiyiniz hər anın qədrini bilin



Birlikdə səhər yeməyi yeyib ictimai yerdə dincəlirsiniz. Xanımınıza deyil, əlinizdəki jurnala diqqət yetirir, maraqlı məlumatlar oxuyursunuz. Əhvalruhiyyəniz əladır. Birdən xanımınız sizə sual verir: "Kino haqqında yeni nə xəbər var, oxudunmu?". Siz "Hə, oxudum" -deyib yenidən əvvəlki işinizlə məşğul olursunuz.

Təbii ki, bu halda davranışınız diqqətsizlik kimi qiymətləndiriləcək. Mütəxəssislərin fikrincə, hər iki tərəfi bir-birinə bağlayan təkcə birlikdə etdikləri səhər, şam və ya axşam yeməyi deyil (bu o qədər də vacib sayılmır). Əsası odur ki, gündəlik həyatda yaşadıqlarınızı bir-birinizlə bölüşməyi və bir-birinizə daha çox diqqət ayırmağı bacarmalısınız.

### 3. Duyğularınızı paylaşın

Əsl cütlər yalnız süfrəsini və pulunu bölüşməklə kifayətlənməməlidir. Demək olar ki, kişilərin 81 faizi özlərini ailədə hakim sayır. Belələri üçün həyatda vacib olanı öz istəklərini gerçəkləşdirməkdir. Qarşı tərəfin istək və düşüncələri onları heç vaxt maraqlandırmır. Amma bu cür kişilər nəticədə ailənin dağılmasına səbəb olurlar. Xanımlar da həyat yoldaşlarının fikir və düşüncələri ilə razılaşmaya bilər. Lakin hər iki halda məsələ qarşılıqlı anlaşma yolu ilə ilə həllini tapmalıdır.

### 4. Elə mübahisə edin ki, sonradan peşimançılıq yaşamayasınız

Bəzi cütlüklər haqlı olaraq mübahisəyə başladıqları halda, bəziləri lüzumsuz, boş yerə mübahisə edirlər. Məsələn, "sən buna təmiz deyirsən? Bunun nəyi təmizdir?" etirazı və ya "Sənə ehtiyac duyduğum anda yanımda olmursan" tələbi və s. Bu vəziyyətdə kişi üstünlüyünü göstərmək üçün qarşı tərəfə hücum etməyə başlayır. Əgər mübahisə yaranıbsa, onun kəskinləşib qarşıdurma, dava-dalaşa kevçrilməsinə şərait yaradılmamalıdır. Kritik anlarda çıxış yolu tapmayanda ən azı 20 dəqiqəliyinə otağı tərk edin (Bu hallarda qəlb qırılmasın deyə, hər iki tərəfin birbirindən ayrı qalmaları məsləhətdir). Qarşı tərəfə anlayış göstərməyə çalışın və fikirlərinə hörmətlə yanaşdığınızı bildirərək mübahisəni bitirin.

### 5. Eşqinizin xəritəsini çəkin

İş yerini dəyişirsiniz, yeni evə köçürsünüz və s. bu kimi hallarda həyatınızın istiqamətini tamamilə dəyişə bilərsiniz. Hər hansı dəyişiklik münasibəti güclü olanlar üçün müsbət, zəyif olanlar üçünsə mənfi təsir göstərir. Ailə quranda hər iki tərəf bir-birlərinin xəyallarını, ümid və arzularını yaxşı bilməlidir ki, sonradan baş verən bütün çətinliklərə sinə gəlmək mümkün olsun. «Eşqinizin xəritəsi»ni çəkənədək bir-birinizi yaxşı tanıyın və bacardığınız qədər çox şey öyrənin. Çətin anlarda bir-birinizə dəstək olmağınız əsas şərtlərdən biridir.

## O X U C U Ş E R İ



Ulduz

### Atasız balam

Ata həsrəti ilə böyüdü balam,
Ata nəvazişi görmədi balam
Bilmədi nə olur ata qucağı,
Ata məhəbbəti, ata ocağı.

Atasız balamı böyüdüm necə,
Həm gündüz ağladım, həm də ki, gecə
Yatanda gecələr öpdüm gizlicə,
Atasın axtaran o gözlərindən.

O, məsum üzünə baxa bilmirəm,
Gözümü yandırır gözü balamın.
Qəlbində bir nisgil, gözündə kədər,
Qəlbimi yandırır dərdi balamın.

Yaşı tamam azdır qəlbi çox kövrək,
Dərdi yaşından da çoxdur balamın.
Atalı-analı yetim balamın,
Qəlbimi sındırır dərdi balamın

## TƏBRİK

**ULDUZ XANIMIN 40 yaşı tamam olur. Onu bu münasibətlə anası Bədiyyə, övladları Vüsalə, Tünzalə, Vüsal, bacıları Dilbər, Xatın, Təriş, Səyyarə, bacısı uşaqları Dürrə, Pərvanə, Könül, Kəmalə təbrik edirlər. Qoy bu əziz gündə bütün arzularınız həyata keçsin, günəş simanıza nur saçsın, ömür yollarınızı isə güllər-çiçəklər bəzəsin. Övladlarınızın xeyir işini görmək Sizə də nəsib olsun.**

**Təbrikə "Xəmsə" redaksiyası da qoşulur.**

Fikrət

### Dedim sənə



Dünənləri eşitdim ki, soyuq dəyib yenə sənə,
Axı sənə "özünə bax" söyləmişdim dönə-dönə.
Sənsə mənim sözlərimə niyə qulaq asmamısan?
Elə bildin "soyuqdəymə" gəlir asan, gedir asan.

Dedim sənə, yay qurtardı, paltarına diqqət elə,
Dedim sənə, yağış yağır, yaxşı geyin olmaz belə.
Dedim sənə, payız gəldi, yaman coşub əsir külək.
Dedim sənə, bəsdi gəzdik, axı bizi kəsir külək.

Yadındamı, yağış vaxtı "gizlənim tap" oynayardıq,
Kim çox üzər göy dənizdə, bir-birimizi sınayardıq.
Paltarımız yaş olardı düz təpədən dırnağadək,
Qurudardıq sıxa-sıxa biz paltarı, bizi külək.

Dedim sənə, daha qışdı, bəlkə gedək evimizə,
Dedim sənə, islanmışıq, indi soyuq dəyər bizə.
Dedim sənə, qış günündə "dondurmanı" yemək olmaz!
Dedim sənə, eşitmədin, küsdün məndən eylədin naz.

İndi həmin "dondurmalar" tutb sənin boğazını,
Yağan yağış, əsən külək dəyişdirib avazını.
Heç eybi yox, darıxma sən mən həmişə səninləyəm
Sənin kimi yarı olan səndən əl çəkərmi bəyəm.

Göz dəyməsin gözəlimə, əhvalın da tez düzəlir,
İndi bizim qarşımıza xoş ətirli bahar gəlir.
İndi çayda, dənizlərdə bir-birimizi sınayarıq,
Yaz yağışı, bir dəki, biz "gizlənim tap" oynayarıq.

Eldar Bədbin Beyləqani

### Məhəbbət yolu



Həsrətin bir yol çəkib
Ürəyimdən sizəcən
Bu yol ilə baş alıb
Sevinc gedir, qəm gəlir.
Xəyalım bu yol ilə
Qonur Ulduza, Aya.
Qayğılarım bu yol ilə
Səpələnir dünyaya.
Bu yol ilə düşüncəm
Keçir niyə, neçindən.
Nifrətim bu yol ilə
Dünyadan köçüb gedir.
Bu yolun əvvəlində
Bir atəş bulağı var.
Ürək içər, qəlb yanar,
Məhəbbətə dönər o.
Bu yol elə həsrətlə
Elə dağlayır məni,
Bu yolun əvvəlində
Bir atəş bulağı var.

İçər, yanar arzular
Düşüncəm bu bulaqdan
Doyunca içib gedər.
Nifrətin bu yolla
Dünyadan köçüb gedər.
Ömrüm, günüm, həyatdan,
Bu yolla keçib gedər.
Bu yolun axırına,
Gərək çıxam, çıxam mən.
Bu yoldan dönən günü,
Demək yoxam, yoxam mən.
Bu yol dünya tək qədim
İnsan qədər uludur.
Bu dünya gözəlliklə,
Yaraşıqla doludur.
Bu yol mənim öz yolum
Kədər ilə, qəm ilə,
Sevinc ilə, doludur.
Bu yol mənim düz yolum,
Eşq-məhəbbət yoludur!

## ELAN

Redaksiyaya məktub yazmağı unutmayın, təbrik, elan, şer və həyat hekayələrinizi göndərməyə davam edin. Nəzərinizə çatdırırıq ki, həftənin I və V günləri **(saat 11-18 dək)** ədəbiyyat şöbəsinin əməkdaşı ilə telefonla **(*470-03-33*)** əlaqə saxlaya, elektron ünvana təklif, arzu və iradlarınızı **(*khamsa-gunay@rambler.ru*)** yollaya bilərsiniz.

## Sevgi mesajları

Bir can düşün mənsiz, bir bədən düşün qəlbsiz, bir qəlb düşün sevgisiz, bir də məni düşün sənsiz...

* * *

Ənsizliyə birtəhər dözdüm... Sənsiz səhər açıldı, fəsillər dəyişdi, ömür keçdi, dodaq-



larımla gülə bildim amma, gözlərimlə gülməyi unutdum sayəndə.

* * *

Mən ölümdən deyil, unudulmaqdan qorxuram.

* * *

Əllərini uzat, heç düşünmədən daxil ol dünyama. Bil ki, yalnız ölüm məni səndən ayıra bilər...

* * *

Bu həyatda iki kor tanıdım. Biri məni görə bilməyən sən, o birisi isə səndən başqa heç kəsi görməyən mən.

* * *

Tikan olub əl-ayağa batmaqdansa, gül-çiçək ol səni sinəyə taxsınlar.

* * *

Məni zülmətdən aydınlığa, yalandan həqiqətə, ölümdən ölümsüzlüyə apardığın üçün sənə təşəkkür edirəm.

* * *

Gözlərilə gözlərinə göz qoyanın, gözlərimlə gözlərini oyaram. Gözəlirin yad gözlərdən çək, çünki gözlərin gözlərimə lazımdır.

* * *

Qəlbimdə axtarma əvvəlki yerini, gözlərimdən axan selə qarışdın…

Hazırladı: *Günay*



Azərb. rej.-ru | Ağartı | İrəm | Ət satan | Veyl

Şəhər mənzərəsi | Azəri memarı | Surə

Şuşa | Bostan | Şair | Linza | Sümük

Qare | Zibil | Dalğa

Çıxıq | Acı | Danlaq | Zabit

Səhra | Dayə | ... Toy (müğ.)

Feodal | Vətəndaşlığı itirmə | Tenor | Dilavər | At (tərs) | Həmişə | İşarə | Femida

Alov | Vergül əvəzi | "...Mariya" | Pendir | ...Məmmədova | Fındıq, qoz | Hədiyyə

Zöhrə | Ərəblərdə qul | Bağ.-cı | Nasir (tərs) | Göl, qəsəbə | ...-kvarto

Adət | Say | ... İsgəndərli

Bəli | Əziyyət | ...ok, te... | Atom | Sayma

Odlu | Qayə | Büt | Han | Hiddət | TT

"Qold Star" | Göl | ...kat | Möhlət | Müdrik | Bürc | Təyyarə

Mələykə | Nacaq | Salat | Türk aktrisası | Hündür | Mus. aləti

...Ərəbistanı | Mərəkə | Oyun

Çevara (inq.-çı) | Söz | ...İsgəndərov | Lüksemburq | Qurab | Rəvan

Görmə | ...na | Xarici görkəm | Diyircək | Şəhər | Kərə | Köhnə maşın

Öyüd | Sabiq | Ölçü (qısa) | Qəmiş | Krem | Qızılı

Rayt (fut.-çu) | Rəngləmə | Paytaxt

H.Cavid | Çay | Mus. qrupu | Hesab | Stansiya | Obraz

Mağaza | Muromets | Maşa | "İrq" | ...d (millət)

Pilot | At | Qısa (k=g) | Atil | Xanım

Gül suyu | Pəltək | Ada | Sadıqcan | Mürəbbə

Mərcan | Burun | Rusiya

Meymun | Bak | Çay+not= çay

Müqəddəs kitab | 102,107



Hazırladı: *Vəli*

# TİPİK GƏLİNİN SƏHVLƏRİ NƏDƏDİR?



**_Birinci səhv:_ "MƏNİM ANAM YAXŞIDIR"**

Gənclər qızın anasıgildə yaşayırlar. Bu zaman qız üçün şərait əlverişlidir. Düşünür ki, anası hər zaman yanındadır, bir şey gərəyi olsa, anası o dəqiqə köməyinə çatacaq. Eyni zamanda ev işlərinin yükü də azalıb. Lakin bu vəziyyət əri qane etmir. O, öz həyat yoldaşından getdikcə uzaqlaşmağa başlayır. Evdə, demək olar ki, tapılmır, gah işdən gec gəlir, gah da gününü dostları ilə keçirir.

Qaynana ilə söhbətlər isə ürəkdə dərin izlər qoyur. Çünki o ancaq oğlu haqqında növbəti idialarını söyləmək üçün zəng edir. Oğlunun qiymətləndirilməməsini görən, gəlininin öz ərini sevməməsinə əmin olan qaynana gənclərin ayrılmasını ən optimal variant hesab edir.

**Vəziyyəti şərh edən psixoloqun fikri:** Gənclər qızın anasıgildə yaşadığı zaman statusunu təkcə öz yaxınlarının deyil, həmçinin də onu əhatə edənlərin gözündə alçaldır. Bu zaman o, öz statusunu hər bir ciddi-cəhdlə qaldırmağa çalışır. Əgər bu onun karyera və əməkhaqqının artmasına dəlalət edirsə, bu yaxşıdır. Lakin gənc ailə başçısı öz ləyaqətini dostlarında içkidə və ya digər qadında axtarmağa başlayır. Deməli, qaynana oğlunun ailəsinin dağılmasına görə, əbəs yerə narahat olmurmuş.

**_İkinci səhv:_ "MƏN ONA HƏR İŞDƏ KÖMƏK EDƏCƏYƏM"**

Gənclər ərin valideynləri ilə birgə yaşayırlar. Ev işlərində fəallığı öz üzərinə götürsə də gəlin qaynana bir-biri ilə dil tapa bilmir. Çünki həyat barədə onların hər ikisinin bir-birindən fərqli düşüncəsi var. Qaynana öz evinin sahibəsi kimi hər şeyə qısqanclıqla yanaşır və istəyir ki, evdəki köhnə qaydalar davam etsin. Gəlin isə necə deyərlər "öz qanunları" ilə hərəkət edir və buna görə də onun etdiyi hər bir iş qaynana tərəfindən ürəkaçan qarşılanmır, biş-düşü, pal-paltarı yumaması, ütü çəkməyi və sair gördüyü işlər qaynana tərəfindən bəyənilmir. Bu zaman gəlinə dərs demək fikrinə düşən qaynananın istəyinə isə qarşı tərəf müqavimət göstərir. Nəticədə mətbəx deyişməsi getdikcə həqiqi dava-dalaşa çevrilir.

**Psixoloqun şərhi.** Qaynana evinin sahibəsidir. O öz rolunu gəlinə verməyə borclu deyil. Gənc xanım isə bununla razılaşmalı və qaynananın diktə etdiyi qayda-qanuna tabe olmalıdır. Çünki gəlin hələ uşaqdır və o, öz vəziyyətindən ibrət dərsi almalıdır. Mətbəxdə az qurdalanmalı və ev işlərini istədiyi kimi görməkdə qaynanasına imkan verməlidir. Yeganə olaraq, gəlin qaynanasına öz şəxsi və ailə həyatına müdaxilə etməyə razılıq verməməlidir.

**_Üçüncü səhv:_ "QAYNANAM MƏNƏ ANAMI ƏVƏZ EDƏCƏK"**

Uşaqlıqda anasından nəvaziş və qayğı görməyən gəlin bütün qızlıq məhəbbətini və meylini qaynanaya salır. Bu o zaman baş verir ki, gəlin ya uşaq evində böyüyüb, ya da ki, doğma anası sadəcə onunla çox soyuq davranıb. Ana məhəbbətinə hədsiz ehtiyac duyan qız bu istəyi ərin evində tapır. İlk gündən qaynanasını "ana"- deyə çağırır, onun hər sözünü göydə tutur, onlar beləcə mehriban şəraitdə yaşayırlar.

Burada təbii ki, pis bir şey nəzərə çarpmasa da, onları tələ gözləyir. İlk öncə qaynana öz "ana"lıq vəzifəsini yaxşı yerinə yetirsə də, vaxt ötdükcə gəlin anası ilə bağlı yığılıb qalmış kinküdurətini onun üstünə tökməyə başlayır, bu isə onlar arasında münaqişəyə çevrilir. Nəticədə bu qadınlar onların hər ikisinə əziz olan insanı-oğulu və əri öz tərəfinə çəkməyə başlayır.

**Psixoloqun şərhi.** Gəlinlə qaynana arasında münasibətlərin müəyyən həddi olmalıdır. Yuxarıdakı vəziyyətdə gəlin qaynanasından öz doğma anasının verə biləcəyi bağlılığı gözləyir. Lakin o unudur ki, qaynana artıq bu borcunu oğlunu böyütməklə ödəyibdir, o gəlinini də doğma qızı kimi sevməyə borclu deyil. Məhz buna görə, də onlar arasındakı isti münasibət mülayimləşəndə mühit partlayıcı həddə çatır.

**_Dördüncü səhv:_ "BİZİM BÜTÜN BƏDBƏXTÇİLİYİMİZİN SƏBƏBKARI ODUR"**

Çox vaxt qaynanalar özləri də hiss etmədən gəlin üçün "ildırım keçiricisi" rolunu oynayırlar. Evdə baş verə biləcək hər hansısa bir qanqaraçılığa görə onlar cavab verməli olurlar. Məsələn, gəlin ərinə qarşı nə qədər acıqlı olsa da, onunla münaqişəyə girmir, heyfini qəddarcasına qaynanadan alır. Belə qaynana ilə yaşamaq müşkül məsələyə çevrilir. Ərin isə arvadına qarşı heç bir iddiası yoxdur: aralarında yaranmış bütün mənfi enerjisini qaynanasına yönəldən gəlin öz həyat yoldaşı ilə dalaşmır. Qadınlar arasında yaranan münaqişəni adi "qadın söz-söhbəti" kimi dəyərləndirən oğul isə onun üstündə hansı çəkişmənin getdiyini bilmək belə istəmir.

**Psixoloqun şərhi.** Öz uğursuzluqlarına görə başqalarını günahlandırmaq-psixoloji nöqteyi-nəzərdən yetişməməzlik deməkdir. Ərə getdiyiniz şəxsi özünüz seçmisiniz, ona görə də öz ailə həyatınıza cavabdeh olduğunuz kimi, onun məsuliyyətini də özünüz daşımalısınız. Əgər qaynana həddən ziyadə sizin həyatınıza qarışırsa, bunun ailənizə təsirini məhdudlaşdırmağa səy göstərin, bu zaman qaynananın özü də psixoloji baxımdan sakitləşəcəkdir. Oğul və nəvələr isə anaya və nənəyə daha çox hörmət etməyə başlayacaqlar.

**_Beşincii səhv:_ "NƏNƏ ÖZ NƏVƏLƏRİNİN TƏRBİYƏSİNƏ QARIŞMAMALIDIR"**

Gəlinlə istənilən pis münasibətə baxmayaraq, qaynana öz nəvələrini sevir, onlarla daha çox vaxt keçirir və onların daha yaxşı tərbiyə almasında rolunu xüsusi vurğulayır. Uşaq isə hər dəfə anası ilə nənəsinin fikri arasındakı seçim imkanına malik olanda, şıltaq olur, ərköyünləşir və böyükləri əsəbləşdirməyə başlayır. Qaynana isə hər dəfə gəlininə göstərdiyi xidməti hiss etdiyinə görə onun həyatına qarışmağa haqqı olduğunu düşünür.

**Psixoloqun şərhi.** Qaynana qarşısında borclu qalmamaq üçün, onun əməyini dəyərləndir-məkdən ötrü məsələnin daha səmərəli yolunu tapmaq lazımdır. Bunu həm pulla, həm hədiyyə ilə, həm də ev işləri vasitəsilə ödəmək mümkündür. Bundan ötrü qaynananın uşaqla keçirdiyi vaxtı ya dayə, ya da uşaq bağçası ilə məhdudlaşdırmaq olar. Lakin bu addımı atarkən qaynananın xətrinə dəyməmək üçün ciddi bir bəhanə gətirmək lazımdır. Məsələn, "nənə indi çox yorulur, və ya uşaq artıq böyüyüb, ona öz həmyaşıdları ilə ünsiyyətdə olmaq gərəkdir, və yaxud da orada uşaqla xüsusi məşğul olacaqlar" - deməklə öz istəyinə nail olmaq mümkündür.

*Lalə Əlizadə*

# Süfrə mədəniyyəti



## Gül bağçası

**Ərzaqlar:**

Qısa saplaqlı süni güllər,
Çox dərin olmayan kiçik qablar,
Rəngli solfetkalar,
Lent,
Qısa, yarpaqlı budaqlar.

**Hazırlanması:**

Kiçik qablara bir qədər su töküb gülləri saplaqları ilə birgə içərisinə yığın. Beləcə, onları qonaq süfrəsinə düzün. Solfetkaları qələm kimi yumurlayın və yaşıl yarpaqlı budaqları onun üstünə lentlə bağlayın.

# Ay, qız sən oyna, incə bel oynasın...

***Havalar ki isindi toppuş xanımların dərdinin üstünə dərt gəldi. Bir qədər özünüzə vaxt ayırıb, artıq çəkidən xilas olmaq istəyirsinizmi?***

***Təqdim etdiyimiz idman hərəkətlərinin vasitəsilə dümdüz qarına, incə belə sahib olacaqsınız. Hərəkətləri həftədə 4 dəfə, hər hərəkəti isə 15 dəfə təkrar edin. Tezliklə bir nəticə əldə etmək üçün qəbul etdiyiniz qidalara da diqqət yetirmək lazımdır.***



1. Əvvəlcə üzü üstə uzanıb şəkildə göstərildiyi kimi qol və ayaqlarınızı yuxarı qaldırın.

Bu hərəkətlər qarın nahiyyəsinin üst və alt bölgəsini formaya salmaq üçündür.



2. Qarnınızı sıxın və kürəyinizi yerdən qaldırıb sağ tərfə çevirin. Elə edin ki, əlləriniz sağ baldır və yaxud ayaq dizinizin üst hissəsinə dəysin. Bu hərəkəti eynən sola çevrilərək təkrarlayın.



3. Dizinizi büküb ayaqlarınızı yerə qoyun. Əlinizdə top (elə təsəvvür edin ki, maşının rolunu tutursunuz) tutun.



4. Qollarınızı gərgin vəziyyətdə saxlayın və qarın bölgənizi sıxın. Kürəyinizi yerdən qaldıraraq, bel hissədən üzünüzü sağa çevirin. Beləliklə, əlinizdəki top sağ ayağınızın üst hissəsinə dönmüş vəziyyətdə olmalıdır. Sonra bu hərəkətləri eynən sola doğru dönərək təkrarlayın.



5. Qollarınızı formaya salmaq üçün, divandan 15-16 sm. uzaqlıqda üzü üstə uzanın. Ayaqlarınızı yuxarı qaldırın və elə edin ki, barmaq uclarınız divana dəysin. Dirsəklərinizi büküb, divandan tutaraq dəstək alın.

6. Qarın bölgəsini sıxın və çanaq hissəni yerdən bir neçə sm. qaldıraraq, ayaqlarınızı yavaş-yavaş tavana doğru uzadın. Bu hərəkəti yerinə yetirdikdə dirsəkləriniz bir qədər yuxarı qalxa bilər. Bir müddət belə qalın. Sonra çanağ bölgəsi yerə dəyincəyə qədər alçalın və hərəkəti yenidən təkrarlayın.





7. Qarın bölgəsinin üst qismini formaya salmaq üçün, üzü üstə uzanın. Ayaqlarınızı 90 dərəcə bükərək ayaq topuqlarını bir stula qoyub qollarınızı başınızın üstündən uzadın. Bu hərəkəti edərkən əlləriniz üst-üstə olmalıdır.



8. Qollarınızı dümdüz uzadın. Qarın bölgəsini sıxın və kürəyinizi yerdən qaldırıb bir müddət bədənizi bu formada saxlayın. Sonra bu hərəkəti yenidən təkrarlayın.

Hazırladı: *Günay*

# "DÜNYA GÖZƏLİ-2005" MÜSABİQƏSİNDƏ QALMAQALLAR YAŞANDI





Ötən həftə Tailandda keçirilən **"Dünya gözəli-2005"** müsabiqəsinin finalına 170 ölkənin 100 milyondan çox tamaşaçısı televizorla canlı olaraq tamaşa edib və **"Dünya gözəli-2005"** titulu Kanadada yaşayan rus qızı **Natali Qlebovaya** çatıb. Puerto-Riko sakini **Sintiya Olavariya** vitse-miss seçilib. Üçüncü yerin sahibi Dominikan Respublikasından yarışa təşrif gətirmiş **Renata Son** olub. Meksikalı **Laura Elizondo** dördüncü, venesuelli **Monika Spir** isə beşinci yerlə kifayətləniblər.

Yaponiyanın *Mikimoto* zərgərlik firmasında hazırlanan **gözəllik tacının** dəyəri ***250 min dollardır***. Bu firma öz nadir mirvariləri ilə bütün dünyada məşhurdur. Simurq quşunun qanadını xatırladan, ağ qızıldan qayrılan tac qadının əbədi gözəllik və gücünün simvolu kimi düşünülüb, 800 brilliant, 120 mirvari ilə bəzədilib.

Əslində Rusiyanı müsabiqədə rostovlu **Natalya Nikolaeva** təmsil edirdi. Lakin o, uğur qazana bilmədi.

Ümumiyyətlə, qızıl tac uğrunda *81 namizəd* yarışıb.

Onlar əvvəl səhnəyə öz ölkələrinin milli geyimində çıxıb, sonra axşam və çimərlik paltarlarında bədənlərinin bütün təravətini nümayiş etdiriblər, eləcə də jurnalistlərin çoxsaylı suallarına cavab veriblər.

Yarışın başlanğıcında Kanadanın nümayəndəsi, ən şanslı iştirakçı **Natali Qlebova** *"Miss foto"* titulunu qazanıb.

***Dünyanın diqqət mərkəzində olan bu möhtəşəm tədbir qalmaqalsız ötüşməyib.***

İsrailli **Yelena Ralf** televiziya jurnalistlərinə məlumat verib ki, o, Misir və Livan gözəlləri ilə xoş rəftar etməsinə baxmayaraq **təhqirlə** qarşılaşıb. **Livanlı qız onunla şəkil çəkdirməkdən boyun qaçırıb.** Eləcə də müsabiqənin təşkilatçıları yerli dindarların heysiyatına toxunublar. Müxtəlif ölkələrdən gələn gözəllər mühün dini bayram ərəfəsində küçələrdə **yarımçılpaq görünüşləri ilə müqəddəs buddanı ləkələyiblər.** Məbədin qabağındakı meydanda iştirakçıların şəkilləri çəkilib. Təsadüfən qədim binanın arxa hissəsi kadrlara düşüb və ekranlarda göstərilib. Bu, dindarların böyük narazılığına səbəb olub.

***Lakin Natali Qlebovanın başına qoyulan tacın parıltısı bütün mübahisələrə son qoyub.***

# Astroloji proqnoz

**OÇ (21 mart - 20 aprel)** Sıxıntılı günləriniz artıq geridə qaldı. Həftə ərzində əlinizə yaxşı fürsətlər keçəcək, onları dəyərləndirməyə çalışın. Sevgilinizə xoş münasibət göstərməyi unutmayın. Sağlamlığınızın qeydinə qalın.

**UĞA (21 aprel - 20 may)** Sizi yeni tanışlıq gözləyir. İş yerinizdə qarşılaşdığınız problemi tezliklə aradan qaldıracaqsınız. Maddi vəziyyətiniz yaxşılaşacaq. Gəlirinizin bir qismini özünüzə, bir qismini isə xeyriyyə işlərinə sərf etməyiniz məsləhətdir.

**KİZLƏR (21 may - 21 iyun)** Özünüzü hər kəsdən ağıllı hesab edirsiniz. Bu davranışınızla ətrafınızdakı insanların gözündən düşə bilərsiniz. Bütün gücünüzü işinizə yönəltmisiniz. Bir qədər də özünüzə vaxt ayırıb istirahət edin.

**ƏRÇƏNG (22 iyun - 22 iyul)** Siz də özünüzdən razı görünürsünüz. Amma həqiqətdə bu belə deyil. Əliaçıqlığınız sayəsində dostlarınız çoxalacaq. Sevgilinizin qəlbini qırmayın. Hərəkətlərinizə diqqət yetirin.

**İR (23 iyul - 23 avqust)** Həftə boyu işləriniz tərs gətirəcək. Sanki sizi sınağa çəkirlər. Ancaq ümidinizi üzüb həyatdan küsməyin. Yaxınlarınızın dəstəyini hiss edəcəksiniz. Dostlarınızla görüşüb gəzintiyə çıxmağınız məsləhətdir.

**IZ (24 avqust - 23 sentyabr)** Vaxtınızın çox hissəsi sağlamlığınıza sərf olunacaq. Nə qədər çox çalışsanız, bir o qədər qarşılığını alacaqsınız. İdmanla məşğul olun və səhhətinizə müsbət təsir göstərən qidalar qəbul edin.

**ƏRƏZİ (24 sentyabr - 23 oktyabr)** Arzularınızı gerçəkləşdirmək qərarına gələcəksiniz. Qarşıda sizi çətin günlər gözləyir. Sevdikləriniz və yaxınlarınızdan dəstək görəcəksiniz.

**QRƏB (24 oktyabr - 22 noyabr)** Bərəkətli bir həftədir. Sevdiyiniz haqqında deyilənlərə inanmayın. Yoxsa onun etibarını itirmiş olarsınız. Həqiqəti özündən öyrənin. Belə etsəniz, peşiman olmayacaqsınız.

**XATAN (23 noyabr - 21 dekabr)** Yeni iş təklifi alacaqsınız. Sizi həm də xoş surprizlər gözləyir. Maddi vəziyyətiniz yaxşılaşacaq. Vaxtınızın çox hissəsini sevdiyinizlə birgə keçirməyiniz məsləhətdir.

**ĞLAQ (22 dekabr - 20 yanvar)** Problemlərlə qarşılaşacaqsınız. Sevgiliniz sizə köməklik göstərəcək. Əgər ürək dostunuz yoxdursa, yeni tanış olduğunuz insanla ciddi münasibətə başlaya bilərsiniz.

**OLÇA (21 yanvar - 20 fevral)** İşinizdəki dəyişikliklər ürəyinizcə olacaq. Bu isə planlarınızın gerçəkləşməsinə imkan yaradacaq. Artıq çəkidən qurtarmaq üçün idmanla məşğul olmağınız məsləhətdir.

**ALIQ (21 fevral - 20 mart)** Zəkanıza və gücünüzə inanın. Dost hesab etdiyiniz insanlar hərəkətləri ilə sizi təəccübləndirə bilər. Onları özünüzdən uzaqlaşdırmağa çalışın. Əsas diqqəti isə sağlamlığınıza yönəldin. İstirahət etməyiniz məsləhətdir.

**Bir məsələni də yaddan çıxarmayın ki, hər şey Allahın əlindədir.**




Təsisçi
Mürvət HƏSƏNLİ

Baş redaktor
Ramazan QAFARLI
*editor@khamsa.az*

Redaktor
*Aysel*

Dizayner
*Ləman*

Məsul katib
*Günay*

Ədliyyə Nazirliyində qeydiyyatdan keçib. Şəhadətnamə № 92
VÖİN: 1600086641
H/h.: 38090002310000
Texnikabankın Nəsimi filialı, kod 508579

Qəzet "Xəmsə" jurnalının kompüter mərkəzində yığılıb, "Ekspress" mətbəəsində çap edilmişdir.

Redaksiyaya daxil olan əlyazmalar bir ay müddətində saxlanılır. Redaksiyanın ünvanına və *e-poçtuna* məktub göndərə bilərsiniz.

Ünvan:
Az - 1096,
Bakı ş., M.Əliyev küç., 2403/04
Tel./Faks: 470 03 33

Sifariş 039,
Sayı: 1000